www.musavat.com

# MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7-9 noyabr 2015-ci il Cümə № 248 (6276) Qiymətı 40 qəpik

**Xəbər**

## Şirvanda kriminal "razborka": "Krıtı Elvin" və dostu öldürüldü

yazısı səh.14-də

**Gündəm**

### Prezident Tiflisdən mühüm mesajlar verdi



Gürcüstan səfəri iki ölkə arasında strateji tərəfdaşlığın davam edəcəyini təsdiqlədi; "Bakı və Tiflis gələcəkdə də eyni mövqedən çıxış edəcək" ismarışı ən əvvəl Ermənistana ünvanlanıb

yazısı səh.9-da

### MTN-in şöbə rəisinin vəkili redaksiyamıza məktub yolladı

yazısı səh.3-də

*Siyavuş Novruzov:*

### "Rza İbadov YAP-a üzvlük üçün müraciət etsə..."

yazısı səh.7-də

### Mərkəzi Bank banklara gizli göstəriş verib

yazısı səh.7-də

### Sərdar Cəlaloğlunun Məhərrəmliklə bağlı fikirləri aranı qatdı

yazısı səh.12-də

### Sahibkarların daha bir qənimi - icra başçıları...

yazısı səh.6-da

### Hollandiya Qarabağ separatçılarına meydan verdi; Bakıdan etiraz...

yazısı səh.10-da

### Hansı təyyarə ilə uçsaq, sağ qalarıq...

yazısı səh.15-də

### Kəsirli büdcəmiz - hansı xərclər kəsildi, hansı gəlirlər artdı?

yazısı səh.10-da

### Müxalifət seçkinin nəticələrinə aksiyasız etiraz edir...

yazısı səh.11-də

### Səhiyyə Nazirliyi 118 saxta diplom aşkarladı

yazısı səh.14-də

### Qarabağı necə qaytaraq...

yazısı səh.12-də

## Prezidentin son qərarlarının pərdəarxası

# ELDAR MAHMUDOVUN HƏBSİ ANONSU - "REKETLİK EDİLİB"

MTN-də baş verənlərlə bağlı dövlət başçısının sərt çıxışı kimsəyə güzəşt edilməyəcəyi deməkdir; sabiq nazirin həbsi iqtidarda MTN-ə bağlı, eləcə də onunla əks qruplarda yer alanları da hərəkətə keçirəcəyi və nəticədə hakimiyyət daxilində gərginliyin artacağı nəzərə alınaraq ertələnib, indi isə...




yazısı səh.8-də

## Əhliman Əmiraslanov Milli Məclisə spiker gətirilir - şok iddia

Oqtay Əsədov Eldar Mahmudovla yaxın əlaqələrinin güdazına gedib; MTN rəhbərliyi uğrunda Naxçıvan klanının hərəkətə keçdiyi deyilir; Vasif Talıbovun adı milli təhlükəsizlik naziri postuna əsas iddiaçı kimi hallanır

yazısı səh.3-də



*Əli Əsədov:*

### "Eldar Mahmudov haqda onu deyə bilərəm ki..."

yazısı səh.2-də



*Arif Hacılı:*

### "İqbal Ağazadəyə əməkdaşlıq təklif etmək fikrimiz yoxdur"

yazısı səh.7-də



### Rüstəm İbrahimbəyovun qızı Leyla Əliyevanın layihəsində

yazısı səh.4-də

## Əli Əsədov: "Cinayət etməmişəm ki, həbs olunam"



**Prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədovun adı "MTN işi" mövzusunda hallanır. Mətbuat vaxtaşırı onun sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla yaxın əlaqələri olması haqda yazır.**

Bəzi iddialara görə, Ə.Əsədovla E.Mahmudov hər gün kontaktda olublar. Onların Bakının 20-ci sahə massivində yerləşən "Nar Şərab" restoranında tez-tez görüşdükləri deyilir. Artıq qəzetlər yazır ki, Əli Əsədov "MTN işi"nə görə yaxın vaxtlarda həbs oluna bilər.

Haqqında deyilənlərə aydınlıq gətirmək məqsədilə musavat.com-un əməkdaşı prezidentin köməkçisi Əli Əsədovla əlaqə saxlayıb. Ə.Əsədova bildirib ki, haqqında deyilənlərin heç bir əsası yoxdur: "Bircə onu deyə bilərəm ki, Eldar Mahmudov dövlətin naziri olub, uzun müddət milli təhlükəsizlik naziri postunu tutub. Artıq o, sabiq nazirdir".

Həbs olunacağı barədə mətbuatda yazılanlara cavab olaraq Ə.Əsədov "mənim həbs olunacağım barədə deyilənlərin əsası yoxdu, cinayət etməmişəm ki, tutulam" cavabını verib.

## Ədliyyə Nazirliyi: "AXCP ilə bağlı 2 müraciət daxil olub, araşdırılır"




**Ədliyyə Nazirliyi Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) ətrafında yaranmış vəziyyətə münasibət bildirib. Qurumun mətbuat xidmtindən APA-ya verilən məlumata görə, nazirliyiə AXCP qurultayı ilə bağlı 2 müraciət daxil olub və bunlar araşdırılır: "Yaxın vaxtlarda araşdırmanın nəticəsi cəmiyyətə açıqlanacaq".**

Xatırladaq ki, Əli Kərimlinin sədri olduğu AXCP sentyabrın 27-də keçirdiyi qurultayla bağlı müvafiq məlumatların dövlət reysterinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə müraciət edib.

Ə. Kərimlinin sabiq müavini olan Razi Nurullayev isə əsl AXCP-nin onun rəhbərliyi ilə yarandığını bəyan edib və partiya üzvlərini öz ətrafında birləşməyə çağırıb. O, oktyabrın 18-də bu təşkilatın qurultayını keçirib və Ədliyyə Nazirliyinə müraciət edib.

## Lukaşenkodan Kremlə: "Qərblə savaş bitdi"

**"Minsk və Qərbin münasibətlərində yeni səhifə açmaq üçün heç bir manеə yoxdur". Axar.az xəbər verir ki, bunu Belarus prezidenti Aleksandr Lukaşenko andiçmə mərasimindən sonra etdiyi çıxışında söyləyib. Onun sözlərinə görə, Belarus bu münasibətlərin düzəlməsində Qərbdən də eyni dərəcədə aktivlik gözləyir:**

"Belarusun öz maraqları var və biz daim bunu nümayiş etdiririk. Bizim ölkənin slavyan kökləri var və ondan bizi heç kim ayıra bilməz. Şərqdən heç kim bizi Qərbə qarşı yönəldə və ya bizə qarşı Qərb sanksiyalarından sevinə bilməz. Biz Qərblə münasibətlərimizi düzəldəcəyik, ona görə ki, onlar da bizim qonşularımızdır. Bizim orada iqtisadi maraqlarımız var".

Qeyd edək ki, Lukaşenko dünən rəsmən beşinci dəfə Belarus prezidenti olub.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.40 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Britaniya hökuməti hər kəsi işğal altındakı ərazilərə səfər etməməyə çağırıb

**Böyük Britaniyanın Azərbaycandakı səfirliyi bu ölkənin Bristol şəhərində yerləşən "Regent Holiday" turizm şirkətinin Dağlıq Qarabağa qanunsuz səfərlər həyata keçirməsinə münasibət bildirib.**




Səfirlikdən APA-ya verilən məlumata görə, Böyük Britaniyanın xarici siyasət idarəsi turoperatorlar da daxil olmaqla, hər kəsə Dağlıq Qarabağ və hərbi işğal altında olan ətraf ərazilərə səfər etməməyi tövsiyə edib. Tövsiyədə qeyd olunub ki, Azərbaycan hakimiyyətinin icazəsi olmadan Dağlıq Qarabağa səfər edən istənilən şəxsin Azərbaycana girişi qadağan ediləcək. "Xarici siyasət idarəsinin saytında Azərbaycana səfər tövsiyələri ilə bağlı bölmədə bu barədə ətraflı məlumat verilib", - deyə səfirliyin açıqlamasında bildirilib.

Xatırladaq ki, Böyük Britaniyanın Bristol şəhərində yerləşən "Regent Holiday" turizm şirkəti Dağlıq Qarabağa qanunsuz səfərlər həyata keçirməyi planlaşdırır. Şirkət Dağlıq Qarabağa qrup səfərlərinin gələn il mayın 6-dan başlayacağının anonsunu verib. Səfər Ermənistandan başlayacaq və 11 günlük olacaq. Növbəti səfər isə 28 avqusta planlaşdırılır. Turistlərə İrəvandan başlayaraq Dağlıq Qarabağda Şuşa və Xankəndi şəhərlərinə səfər təklif edilir. Şirkətin saytında Dağlıq Qarabağ "1992-ci ildə müstəqilik qazanmış, Azərbaycan daxilindəki erməni anklavı" kimi göstərilib və onun müstəqilliyinin heç bir dövlət tərəfindən tanınmadığı diqqətə çatdırılıb.

## Səsvermədən sonra MSK-ya 16 şikayət daxil olub

### Qurum Elza Seyidcahanın müraciətinə baxıb

**Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. «Trend»in məlumatına görə, iclasda noyabrın 1-də Milli Məclisə keçirilmiş seçkilərlə əlaqədar daxil olmuş müraciətlərə baxılıb.**

MSK katibi Arifə Muxtarova deyib ki, 54 sayı Şabran-Siyəzən seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınmış Elza Qasımova (Seyidcahan) bir neçə seçki məntəqəsində pozuntuya yol verildiyini iddia edərək MSK-ya şikayət edib: "MSK şikayətin DSK-ya göndərilməsi barədə qərar verib".

Həmçinin 107 saylı Qazax seçki dairəsindən deputatlığa namizədliyi qeydə alınmış Zaur Hacıyevin şikayətinə baxılıb.

MSK üzvü Tofiq Həsənov deyib ki, şikayətdə bir neçə seçki məntəqəsində pozuntuya yol verildiyi yazılsa da, məntəqələr konkret göstərilməyib. Z.Həsənovla telefon əlaqəsi zamanı məlum olub ki, o, MSK-dan, ümumiyyətlə, 107 saylı Qazax seçki dairəsi ilə bağlı araşdırma aparılmasını və seçkinin nəticələrinin ləğv olunmasını istəyib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, şikayət DSK ilə bağlı olduğu üçün MSK məsələyə baxa bilər: "Şikayətdə hansı iddialar varsa, o da araşdırılmalıdır. Əslində telefonla verilən şifahi məlumatların araşdırılması düzgün deyil, çünki şəxs şifahi şəkildə dilə gətirdiyi iddiadan imtina da edə bilər".

MSK şikayətə baxıb və şikayətin əsassız olduğu barədə qərar qəbul edilib.

İclasda M.Pənahov bildirib ki, səsvermədən sonra indiyə qədər MSK-ya 16 şikayət daxil olub.

## Türkiyə ordusu antiterror əməliyyatı keçirdi, 119 terrorçu öldürüldü

**Türkiyə Silahlı Qüvvələri ölkənin Hakkari ilə Yüksəkova bölgələri arasında yerləşən Buzul Dağında antiterror əməliyyatı keçirib. "Report" Türkiyə KİV-ə istinadən xəbər verir ki, bu ərazilər dəniz səviyyəsindən 2500-3500 metr yüksəklikdə yerləşir. Türkiyə ordusunun antiterror əməliyyatı nəticəsində 119 terrorçu öldürülüb. Terrorçularla atışmada 6 əsgər şəhid olub.**

2-3 gün davam edən əməliyyat nəticəsində Buzul Dağı bölgəsi terrorçulardan təmizlənib.

Həmin ərazi terrorçu PKK-nın əsas bazalarından sayılırdı. Bu yerlərə "girilməz bölgə" adı da verilmişdi.

Terrorçuların istifadə etdiyi mağaralardan "Doçka" adlı 5 zenit qurğusu da daxil olmaqla, 39 ağır silah və bu silahlara aid on minlərlə sursat aşkarlanaraq götürülüb.

Xəbərdə bildirlib ki, bu yüksəkliyin terrorçulardan təmizlənməsi təhlükəsizlik baxımından bölgədəki polis məntəqələri üçün böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, 2500-3500 metr yüksəklikdə 15 dərəcə şaxtalı hava şəraitində keçirilən əməliyyat sentyabrın 27-də başlayıb. Bu müddət ərzində terrorçuların sığınacaq yerləri, mağaraları, ərzaq anbarları məhv edilib.

## Ərəb şeyxlərinə cəmi 90 quş ovlamağa icazə verilib

**"Ölkə qanunlarına müvafiq olaraq Azərbaycan vətəndaşları, o cümlədən xarici ölkə vətəndaşları qanun çərçivəsində Azərbaycanda ov üçün müəyyən edilmiş ərazilərdə mövsümə uyğun olaraq ov bileti ala bilər".**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri İradə İbrahimova deyib.

Onun sözlərinə görə, Azərbaycan qanunlarına müvafiq olaraq Azərbaycan ərazisində ovun həyata keçirilməsi ilə bağlı icazə almaq üçün bugünlərdə Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının nümayəndəsi, "MRG" şirkətinin direktor əvəzi Ceyhun Hacıyev Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müraciət edib: "Azərbaycan qanunlarına müvafiq müraciət etdiklərinə görə nazirlik tərəfindən bu məsələyə baxılıb və ov turizmi ilə məşğul olmaları üçün limitə uyğun olaraq 9 nəfər BƏƏ vətəndaşına, Azərbaycanda qəbul edilmiş normalara görə, hər ovçuya 10 baş quş ovlanmasına icazə verilməklə ov obyektinə müvafiq ov bileti verilib".

Qeyd edək ki, xarici vətəndaşların ov etmələri Nazirlər Kabinetinin 2004-cü il, 30 sentyabr tarixli, 147 saylı qərarı ilə təsdiq edilmiş "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazənin verilməsi Qaydası" ilə tənzimlənir.

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;



## Ramil Usubov Zərdabın yol polisi rəisini Füzuliyə göndərdi

**Daxili işlər orqanlarında yeni təyinat olub. APA-nın məlumatına görə, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun imzaladığı müvafiq əmrlə Zərdab Rayon Polis Şöbəsinin Yol Polisi Bölməsinin rəisi Müşfiq Əmirov tutduğu vəzifədən azad edilərək Füzuli Rayon Polis Şöbəsinin Yol Polisi Bölməsinin rəisi təyin edilib. Onun yerinə hələlik təyinat yoxdur.**

## Nazir 19 nəfəri işdən çıxardı

**Bu ilin ötən dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 19 əməkdaşı yaş həddinə görə işdən azad olunub. "Report" xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əmək qanunvericiliyinin tələblərinə ciddi formada əməl edir: "Əmək Məcəlləsinə əsasən, dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın yaş həddi 65-dir. Bu yaşa çatan işçinin həmin müəssisədə çalışma müddətini müvafiq dövlət orqanının rəhbəri hər dəfə 1 ildən çox olmayaraq uzada bilər. Lakin bu, müəyyən hallar istisna olmaqla, 5 ildən çox davam edə bilməz.**

2015-ci ilin ötən dövründə dövlət büdcəsindən maliyyələşən müəssisələrdə çalışmanın son yaş həddinə çatan 19 əməkdaş Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindəki işlərindən azad olunublar. Bütün əməkdaşlar, o cümlədən işdən çıxarılanlar qanunvericiliyin tələblərini yaxşı bildiklərinə görə işdən azad olunmalarını normal və sakit qarşılayıblar".

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

**Noyabrın 1-də keçirilən parlament seçkilərindən sonra yeni spikerin kim olacağı ətrafında müzakirələr başlayıb. Məlumatlı mənbənin iddiasına görə, Oqtay Əsədovla spiker vəzifəsi ilə vidalaşacaq. Onun yerinə Tibb Universitetinin rektoru, akademik Əhliman Əmiraslanovun gətiriləcəyi barədə söz-söhbətlər yayılıb. Xatırladaq ki, Ə.Əmiraslanov son parlament seçkilərində növbəti dəfə deputat olub.**

# Hakimiyyət daxilində sensasion gəlişmələr

# Əhliman Əmiraslanov Milli Məclisə spiker gətirilir - şok iddia

## Oqtay Əsədov Eldar Mahmudovla yaxın əlaqələrinin güdazına gedib; MTN rəhbərliyi uğrunda Naxçıvan klanının hərəkətə keçdiyi deyilir; Vasif Talıbovun adı milli təhlükəsizlik naziri postuna əsas iddiaçı kimi hallanır

“Yeni Musavat”a verilən məlumata görə, Əhliman Əmiraslanovun spiker olması artıq ölkə rəhbərliyi səviyyəsində razılaşdırılıb. Onun karyerasında bu kəskin yüksəlişdə xarici amillərin rol oynadığı haqda məlumatlar dolaşır.

Yeni spiker postuna adı hallanan deputatlardan biri də Əli Hüseynli olub. Lakin Əhliman Əmiraslanovun MM-ə sədr seçilməsi hakimiyyət daxilindəki qruplaşmaların hamısının razılığı ilə qarşılandığından Ə.Hüseynlinin namizədliyinin üzərində çox dayanılmayıb.

Deyilənə görə, Oqtay Əsədovun sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla yaxın əlaqələrinin olması onun növbəti dəfə Milli Məclisə sədr seçilməsinin qarşısını alıb. İqtidarın E.Mahmudovla yaxın münasibətdə olan bütün məmurlarla bağlı ciddi önləm aldığı deyilir.

17 oktyabrdan sonra hakimiyyət daxilində ciddi çalxalanmaların yaşandığı göz önündədir. Mənbəmiz bildirir ki, çaxnaşmanın bir səbəbi də MTN rəhbərliyinə kimin gətirilməsi ilə bağlıdır. Hakimiyyət daxilindəki qruplaşmalar arasında nazir postu uğrunda savaşın başladığı haqda redaksiyamıza bəzi məlumatlar daxil olub. Yeni milli təhlükəsizlik nazirinin kim olması hakimiyyət daxilindəki qruplaşmaların böyük marağındadır. Qaynağımız bildirir ki, hazırda Naxçıvan klanı hərəkətə keçərək boş qalan təhlükəsizlik naziri postunun “yad əllərə” keçməsinə imkan verməməyə çalışır.

Bu istiqamətdə “Yeni Müsavat”ı bilgiləndirən mənbələrin iddiasına görə, MTN rəhbərliyinə gətirilməsi düşünülən şəxslərdən biri də Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovdur. Mənbəmiz israrla bildirir ki, bu, iqtidardakı Naxçıvan qrupunun xilas modeli kimi görünür. Çünki MTN nüfuzuna, təsir imkanlarına görə dövlətdə ən əsas qurumlardan biridir. V.Talıbov kimi güclü adamın bu posta gətirilməsini klan öz maraqları baxımından olduqca əlverişli sayır. Köhnə klanın bu istəyini ölkə rəhbərliyinə çatdırdığı gələn xəbərlər sırasındadır.



Əhliman Əmiraslanov

“Yeni Musavat”ı bilgiləndirən mənbə onu da bildirib ki, Vasif Talıbovun milli təhlükəsizlik naziri olmasını istəyənlər əsas kimi onun bütün məmurlarla, dövlət adamları ilə məsafəli münasibətini göstərir. V.Talıbovun nazir olmasını istəyənlər bu seçimin hakimiyyət daxilindəki qruplaşmalar arasında gərginliyi aradan qaldıracağına, ortamın yumşalacağına gətirib çıxaracağını deyirlər.

Deyilənə görə, hakimiyyət daxilindəki qruplaşmaların Vasif Talıbovun nazir təyin edilməsini istəməsinin arxasında duran məqamlardan biri də Mədət Quliyevlə bağlıdır. Mənbəmiz bildirir ki, “yad bölgədən” olan M.Quliyevin milli təhlükəsizlik naziri olması iqtidardakı köhnə qvardiyanı ciddi narahat edir. Ona görə də onun 1-ci müavindən artıq böyüməsini istəmirlər.

❑ **İnformasiya şöbəsi**

# MTN-in şöbə rəisinin vəkili redaksiyamıza məktub yolladı

## Gülarə İlyasova: “MTN-in İstintaq Baş İdarəsinin rəisi vəzifəsində Mövlam Şixəliyev çalışıb…”

**Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsinin şöbə rəisi Təhsin Ağayevin nümayəndəsi Gülarə İlyasova redaksiyamıza məktubla müraciət edib.**

12 saylı hüquq məhləhətxanasında çalışan vəkil G.İlyasova müraciətində Təhsin Ağayevin barəsində xoşagəlməz məqalə çıxdığını bildirir. Müvəkkilinin vəzifəsinin səhv yazıldığını iddia edir. Halbuki məqalədə T.Ağayevin Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsinin rəisi deyil, məhz şöbə rəisi olduğu qeyd edilib.

Şöbə rəisinin vəkili həmin vəzifəni bu ilin oktyabrına qədər Mövlam Şıxəliyevin tutduğunu da nəzərə çatdırır. G.İlyasovanın yazdığından aydın olur ki, Mövlam Şıxəliyev tutduğu vəzifədən uzaqlaşdırılıb.

**Vəkil redaksiyamıza müraciətində yazır:** “Yazıb Sizə bildirirəm ki, qeyd etdiyim məqalədə 2010-cu ildə Azərbaycan Respublikasının MTN-in əməkdaşı Təhsin Ağayev sahibkar Əhməd Mirzəyevdən guya 500.000 ABŞ dolları alınması yazılmışdır. Eyni zamanda həmin məqalədə Təhsin Ağayevin Azərbaycan Respublikası MTN-in İstintaq Baş İdarəsinin rəisi vəzifəsində işlədiyi qeyd edilmişdir. Qeyd etmək istəyirəm ki, Təhsin Ağayev nə 2010-cu ildə, nə də ki hal-hazırda, ümumiyyətlə, Azərbaycan Respublikası MTN-in İstintaq Baş İdarəsinin rəisi vəzifəsində çalışmamışdır. Məlumat üçün bildirmək istəyirəm ki, 2010-cu ildə Azərbaycan Respublikası MTN-in İstintaq Baş İdarəsinin rəisi vəzifəsində Mövlam Şixəliyev çalışmışdır, hansı ki, 2015-ci ilin oktyabr ayında vəzifəsindən azad edilmişdir. Bundan əlavə, Təhsin Ağayevin icraatında heç vaxt Əhməd Mirzəyevin barəsində cinayət işi



olmamışdır. Sizin internet saytınızda Azərbaycan Respublikası MTN-in əməkdaşı Təhsin Ağayevin barəsində yayılmış məqalə həqiqətə söykənməyən əsaslarla onun üzərinə yönəldilmişdir. Nəticədə, Siz Azərbaycan Respublikası MTN-in əməkdaşı Təhsin Ağayevin şərəfini, ləyaqətini və işgüzar nüfuzunu ləkələmisiz. Bununla əlaqədar olaraq Sizin musavat.com internet saytınızda Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı Təhsin Ağayevin barəsində yuxarıda qeyd etdiyim məqaləni təkzib etməyinizi xahiş edirəm. Əks təqdirdə, məhkəməyə müraciət etməyə məcbur olacağımı bildirirəm”.

Qeyd edək ki, vəkilin qeyd etdiyi məqalədə T.Ağayevin vəzifəsi haqda məlumat yer alan abzas belə idi.

**Sitat: “2010-cu il martın 27-də MTN-ə çağırılan sahibkar oranı 21 gün sonra, çox ağır şərtlər altında tərk edə bilib: ”Martın 27-si, Novruz bayramı idi. Məni ora çağıranda hansısa anlaşılmazlıq olduğunu düşündüm. Orada məni Təhsin Ağayevin - MTN-in İstintaq Baş İdarəsinin şöbə rəisinin yanına apardılar. O, elə söhbət aparırdı ki, onun barəmdə xeyli məlumat topladığını başa düşdüm. Deyirdi ki, qaçaqmalçılıqla məşğulam, ona görə də yarım milyon manat verməliyəm. Çaşqın duruma düşmüşdüm. Anlamırdım ki, həmin pulu niyə verməliyəm, hansı qaçaqmalçılıqdan söhbət gedir. Ona dedim ki, özünüz də bilirsiniz ki, restoran biznesi ilə məşğul oluram. Mən qaçaqmalçı deyiləm. O qədər pulumun olmadığını onlara dedim. Həmin pulu niyə verməli olduğumu soruşdum. Cavab verdi ki, biznesin var, pulun var, verməlisən. Dedi ki, sən bir qızıl balıqsan ki, düşmüsən torumuza. Obyektim haqda da məlumat verirdi. Başa düşürdüm ki, barəmdə məlumat yığıblar. Pulumun olmadığını deyirdim, Təhsin Ağayev isə deyirdi ki, pulu verməyəcəksən, buradan da çıxmayacaqsan! Ona dedim ki, axı mənim heç bir günahım yoxdur. Məni pula görə saxlamısızsa, xırda-para verim, əl çəkin. Təhsin Ağayev dedi ki, cənabın göstərişidir, xırdaçılıq eləmə, işləyiriksə, adımıza layiq hesabla işləyək. Sonradan bildim ki, cənab dedikləri nazirləri Eldar Mahmudovdur".**

❑ **E.MƏMMƏDƏLİYEV**

# MTN polkovniki intihara cəhd edib?

## Polkovnikin vəkili bu haqda danışmaq istəmir

**Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Baş İdarəsinin rəisi vəzifəsini icra edən Təhsin Ağayevin özünə qəsd etməsi barədə xəbər yayılıb. Məlumatlı mənbənin liderinfo.az-a bildirdiyinə görə, polkovnik Təhsin Ağayev iş saatlarından sonra intihara cəhd edib.**

Hadisənin digər təfərrüatları haqda məlumat verilmir. Xatırladaq ki, bugünlərdə MTN-in mərhum polkovniki Malik Mustafayevin qardaşı Mətləb Mustafayev qardaşının ölümündə Təhsin Ağayev və Antiterror Mərkəzinin rəisi general Elçin Quliyevi suçlamışdı.

“Yeni Müsavat” əməkdaşı məlumatı dəqiqləşdirmək üçün MTN-in İctimai Əlaqə Mərkəzinə müraciət edib. Mərkəzdən telefon zənglərinə cavab verən olmayıb. Bununla belə, İctimai Əlaqə Mərkəzindən məlumatla bağlı təqdim olunacaq məlumatı dərc etməyə hazır olduğumuzu qeyd edirik. T.Ağayevin vəkili Gülarə İlyasova isə bildirib ki, o, müvəkkili ilə bağlı yayılan məlumata münasibət bildirmək istəmir.

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015



# Ya doğru-dürüst danışmalı, ya da...

Hüseynbala SƏLİMOV

**Hamımız insanıq. Görəndə ki, bizi narahat edən suallar, problemlər hakimiyyətin yüksək təbəqəsinin dilindən səslənir, dərhal ümidə qapılırıq - bəli, düşünürük ki, deyəsən, bu başıbəlalı ölkə axır ki, düzələcək...**

Qərəz, bir müddətdir ki, iqtisadiyyatın normallaşması, işgüzar təbəqənin müdafiə olunması, idarəçilikdəki, ayrı-ayrı strukturlardakı özbaşınalıqların aradan qaldırılması, korrupsiyanın və inhisarçılığın dəf edilməsi ilə bağlı çox böyük müzakirələr gedir...

Müzakirə deyəndə ki, hakim elita deyir, biz də eşidirik. Gəl ki, biz də bu ölkənin vətəndaşlarıyıq, bu ölkədə baş verənlərdən azacıq bizim də xəbərimiz var. Ona görə də deyilənlər bizim tərəfdən anlaşıqla qarşılanır...

Amma cəmiyyətin və ölkənin həyatının bir hissəsində problemləri görmək, o biri hissələrində isə onların mövcudluğunun inkar etmək, istər-istəməz müzakirələrə inamımızı sarsıdır...

Əsl dəyişikliklər heç vaxt "Məmməd çıxarıldı, Həsən təyin olundu!" kimi olmur. Nə vaxtsa ölkənin əsas probleminin - onun qüsurlu siyasi sisteminin də üstünə getmək və bu sistemi tamamilə yenisi ilə əvəz etmək lazım gələcək. Amma bu qədər vaxt keçsə də, bu xüsusda hələ ki bir kəlmə də belə deyilmir...

Təsəvvür edin, ölkədəki böyük problemlərdən danışılır, eyni zamanda parlament seçkisinin çox uğurla keçdiyi deyilir. İnsanlar nə etsin? Deyilənlərə inansın, yoxsa bütün baş verənləri sadəcə, "Həsən Hüseynin xətrinə dəyib, ona görə də gözdən düşüb!" kimi qəbul etsin?..

İnsanların bəlkə də ən yaxşı bildiyi və yaxşı baş çıxardığı problem birinci növbədə seçkidir. Təsadüfi deyil ki, onlar bu haqda heç vaxt ciddi danışmırlar, daim ironiya edirlər. Amma onlara deyilir ki, seçki çox böyük bir uğurla keçib...

Seçkilərə xüsusi yazı həsr etməsəm də bu kontekstdə çox şey yazmışam. Mənə elə gəlir ki, parlamentin yeni tərkibinə ötəri nəzər salmaq kifayətdir ki, əmin olasan ki, bəli, bu, tamam süni konstruksiyadır. Necə olur ki, parlamentə düşmüş bütün digər partiyalar hamısı yalnız bir, nadir hallarda isə iki mandat qazanır? Dərhal sual yaranır ki, axı bu necə olur? Bu partiyaların içində heç üç və ya dörd, beş və ya on mandat qazananı yoxdurmu?

Bəli, heç bir əziyyət çəkmədən başa düşürsən ki, bu, çoxpartiyalı parlament görüntüsü yaratmaq üçün təşkil edilmiş illüziyadır. Təsəvvür edin, partiyalara hətta efir vaxtı da vermirlər. Üstəlik, məlum olur ki, yenidən seçilənlərin az qala yüzü elə köhnə deputatlardır. Bəlkə də dünya praktikasında da belə hallar olur, bir adam bir neçə dəfə seçilir, özü də eyni bir dairədən seçilir. Buna sözümüz yoxdur. Amma bir şey var ki, onlar həqiqətən də seçilirlər....

Bir daha digər partiyaların qazandığı mandatlara qayıtmaq istərdik. Biz seçkinin doğru-dürüstlüyünə o vaxt inanacağıq ki, tək mandat söhbəti bitib-qurtarmış olsun...

Qayıdaq yazının əvvəlindəki mətləblərə... Belə vəziyyət digər problemlərə də inamı sarsıdır. İlk qənaətin bu olur ki, bütün bunlar mənasız siyasi şoudur, çünki heç vaxt problemlərin əsl mahiyyətinə gedilməyəcək, hər şey öz adı ilə adlandırılmayacaq...

Ona görə də bir az düşünüb-daşınandan sonra artıq inam da qalmır. Bilirsinizmi bunlar ölkəni necə "dəyişmək" istəyirlər? İstəyirlər eyni adamlar, eyni idarəçilik fəlsəfəsi qalsın, amma rüşvət bir az azalsın, inhisarçılıq bir az zəifləsin. Mümkünmü? Mən ölkədəki son proseslərlə bağlı vəziyyəti dinləyən adamların yerində təsəvvür etmək istərdim özümü. Onlar nə düşünürlər? Bu adamlar düşünmürmü ki, əgər digər sahələrdə yalan və əyrilik hökm sürürsə, o halda başqa sahələrdə vəziyyət necə düzələ bilər?..

Təbii, düşünürlər. Hamı, necə deyərlər, hansı bir oyuna getdiyinin fərqindədirlər. Fikirləşirlər ki, öz bildiyimizi edək, harada qırılır qırılsın! Ona görə də ümid də qeybə çəkilir, yuxu da. Bəlkə ona görə ki, bu ölkədə elə ümid də yuxu kimidir?..

Amma hər şey başqa cür də ola bilərdi. Normal seçki keçirərdik. Parlament qarşısında məsul hökumət formalaşdıra bilərdik. Məhkəmələrin canını sifarişli qərarlardan qurtara bilərdik. Ölkədə ictimai nəzarət güclənərdi, onun davamlı və dönməz mexanizmləri formalaşardı. Bəli, onda nəyinsə dəyişəcəyinə ümid etmək olardı...

Amma bunları etmirik və bu azmış kimi insanları təkrar-təkrar məyus edirik. Hətta onu da nəzərə almırıq ki, hamımız insanıq - nə əsəblərimiz dəmirdəndir, nə də ürəklərimiz...

# Rüstəm İbrahimbəyovun qızı prezidentin qızının layihəsində

## Fatimə İbrahimbəyova Leyla Əliyevanın filminə çəkilib; hakimiyyətə qarşı barışmaz müxalifətdə olduğunu deyən Milli Şuranın fəxri sədrinin övladı Heydər Əliyev Fondunun projesinə necə düşüb?

**Oktyabrın 24-də Heydər Əliyev Mərkəzində "Bakı, mən səni sevirəm" kinoalmanaxının təqdimatı keçirilib. Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən layihə Bakı, bakılıların həyatı ilə bağlı 10 qısametrajlı filmi birləşdirir. Öncə onu vurğulayaq ki, dünyanın bir çox məşhur şəhərləri haqqında belə almanaxlar çəkilib. Ötən əsrin 90-cı illərindən başlayaraq Nyu-York, London, Paris, Roma, Moskva, Tokio, Seul, Daşkənd analoji layihələrin "baş qəhrəmanı" olub.**








"Bakı, mən səni sevirəm"in bir özəlliyi almanax üzərində beynəlxalq heyətin çalışması, toplunun bədii keyfiyyətidir. Amma günümüz açısından diqqət çəkən bir başqa özəlliyi də layihə rəhbəri dövlət başçısı İlham Əliyevin qızı Leyla Əliyeva olan filmin qəhrəmanlarından birini Milli Şuranın keçmiş sədri Rüstəm İbrahimbəyovun qızı Fatimə İbrahimbəyovanın canlandırmasıdır.

Fatima İbrahimbəyova Rüstəm İbrahimbəyovla Azərbaycanın xalq artisti, Rus Dram Teatrının aktrisası Lyudmila Duxovnayanın övladıdır. Orta təhsilini Bakıda alan Fatimə Moskvada Gerasimov adına Kinematoqrafiya İnstitutunu bitirib. Maksim Polzikovla evlidir və indi Moskvada yaşayır.

Bakıda keçirilən təntənəli açılış mərasimində layihə rəhbəri Leyla Əliyeva ilə yanaşı Azərbaycan hökumətinin bir çox nümayəndələri, diplomatik missiyaların təmsilçiləri, sənət adamları qatılıb.

"Bakı, mən səni sevirəm" layihəsi üzrə çəkilişlər 2012-ci ildə başlayıb. "Mosfilm"də istehsal olunan "Bakı, mən səni sevirəm"in əcnəbi rejissorlarından rusiyalı Yeqor Mixalkov-Konçalovskiy (o, həm də layihənin baş prodüseridir), Aleksey Qolubev, Andrey Razenkov, portuqaliyalı Andre Badalo, britaniyalı Aleksandr Fodor da açılışa gəlib. Novellalardan 4-ünü yerli rejissorlar - Nadir Maçanov, Nərgiz Bağırzadə, Yavər Rzayev, İlqar Safat çəkib.

Yerli aktyorlardan Rasim Balayev, Sənubər İsgəndərli, Ayşad Məmmədov, Laləzar Mustafayeva Məbud Məhərrəmov, Şamil Süleymanov, Bəhram Bağırzadə, Cavanşir Hadıyev, Elşən Cəbrayılov, Fuad Osmanov, Günel Məmmədovanın rol aldığı layihəyə İtaliyadan, Böyük Britaniyadan, Türkiyədən, Rusiyadan, Belorusdan, Litvadan, Özbəkistandan ünlü aktyorlar dəvət edilib. Bu sırada çağdaş dünya kinematoqrafiyasının ünlü isimlərindən Alessandro Bertoluççu, Aziya Arcento, Nadira Mürrey, Aqniya Ditkovskite də var. Kütləvi səhnələr də nəzərə alınmaqla, filmdə 150 aktyor iştirak edir.

Hələlik film kinoprakata buraxılmayıb. Layihə rəhbərləri açılış mərasimində bildiriblər ki, "Bakı, mən səni sevirəm" bir çox ölkələrdə göstəriləcək.

Fatima İbrahimbəyovanın rol aldığı "Bəhram gur" novellasının ssenari müəllifi İlqar Safat, rejissoru Andrey Rozenkovdur.

Fatimə İbrahimbəyova filmdə ikinci dəfə qurduğu ailədə sadə həyatını yaşayan gənc bakılı qadın obrazını canlandırıb. Hadisələr oğlunu axtaran "birinci ərin" peyda olmasından sonra canlanır. Gözünüzün qarşısına qısqanclıq səhnələri, dava-dalaş gəlməsin. Almanaxın ümumi ruhuna uyğun olaraq filmdəki hadisələr mədəni ortamda irəliləyir və mümkün ən yaxşı sonluqla bitir.

Maraqlıdır ki, layihədə iştirak edən aktyorlar qalaya tam heyətdə gəlsələr də Fatima İbrahimbəyova onların arasında görünməyib. "Yeni Müsavat"ın əldə etdiyi informasiyaya görə, aktrisa gecəyə dəvət edilib. Ancaq şəxsi işlərinə görə Moskvanı tərk edə bilməyib. Qalada onu anası Lyudmila Duxovnaya təmsil edib.

Sosial şəbəkələrin aktiv istifadəçisi olan Fatimə İbrahimbəyovanın facebook səhifəsində də "Bakı, mən səni sevirəm" və qala haqqında heç bir informasiya, status, şəkil gözə dəymir. Yaradıcı heyət üzvləri isə deyir ki, nə filmin çəkilişi, nə də hazırlanması zamanı İbrahimbəyovanın atasının hakimiyyətlə soyuq münasibəti gündəmə gəlməyib, buna görə filmin yenidən işlənməsi ehtiyacı yaranmayıb. Hətta heyət üzvlərindən bəziləri filmin rəhbər heyətindən ölkənin siyasi həyatında baş verən olayların "Bəhram gur"un taleyinə təsiri ehtimalı haqqında soruşanda "problem yoxdur" cavabını alıblar. Qala gecəsindən sonra Leyla Əliyeva yaradıcı heyətə ziyafət verib. Heyət üzvləri əmindirlər ki, Fatimə İbrahimbəyova Bakıda olsaydı, o da qalada və ziyafətdə iştirak edəcək, yaradıcı komandanın Leyla Əliyeva ilə çəkdirdikləri "isti" fotolarından onda da olacaqdı.

Əslində bu, Azərbaycanda son illərin praktikası baxımından fərqli olaydır. Təcrübə göstərir ki, hakimiyyətə qarşı çıxan istənilən peşə sahibi Azərbaycanda normal fəaliyyət göstərə bilmir, nəinki özü, ailəsi də təqib olunur. Hakimiyyətlə uzlaşmayan, onun siyasəti ilə barışmayan nə qədər elm və sənət adamının Azərbaycanı tərk etməsi haqqında uzun danışmağa ehtiyac yoxdur. Bu gün Azərbaycanın elm və mədəniyyət mühitində professionallıqdan uzaqların at oynatması mənzərəni aydın göstərir.

Dediyimiz səbəbə görə Azərbaycanda rejim dəyişikliyi iddiasında olan bir qurumun rəhbərinin qızının hakim ailə üzvünün layihəsində yer alması çoxsaylı suallar doğurur.

Rüstəm İbrahimbəyov 2013-cü ildən bu yana Azərbaycanda olmayıb. Gah Moskvada, gah ABŞ-da, gah da Avropada yaşayan İbrahimbəyov açıq şəkildə bildirir ki, Bakıya həbs təhlükəsi olduğu üçün dönə bilmir. Milli Şura yaranan ilk vaxtlarda Respublika Prokurorluğunda kinodramaturq haqqında vergidənyayınma maddəsi ilə cinayət işi başlanıb. R.İbrahimbəyov ittihamı əsassız sayır və istintaq təqiblərinin siyasi fəaliyyəti ilə bağlı olduğunu deyir. Milli Şura sədrinin prezidentliyə namizədliyi məsələsi gündəmə gələndə quruma daxil olan siyasi liderlər dəfələrlə onun ölkəyə gəlişini tələb etsələr də kinodramaturq həbs təhlükəsi sovuşmadığına görə bu addımı ata bilməyəcəyini bildirirdi. Daha sonra isə onun Rusiya vətəndaşı olduğu və ölkə qanunlarına görə ümumiyyətlə prezidentliyə iddia edə bilməyəcəyi ortaya çıxdı. Ölkənin siyasi müxalifətinə ciddi zaman itkisi yaşatdığına görə onun hakimiyyətlə işbirliyi haqqında iddialar səslənməyə başladı. Rüstəm İbrahimbəyov uzun illər çox yaxın münasibətdə olduğu, sayəsində böyük imtiyazlar əldə etdiyi hakim ailə ilə ulduzlarının birdəfəlik küsdüyünü iddia eləsə də, faktlar göstərir ki, köhnə dostlarla körpülərin heç də hamısı yandırılmayıb. Hətta daha da "gəncləşdirilib".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

# İqtisadi inkişafa ən böyük əngəl - məmur-biznesmenlər

**Son günlər sahibkarlığın inkişafı, ölkədə biznes mühitinin yaxşılaşdırılması və mövcud əngəllərin aradan qaldırılmasına dair məsələlər ölkə gündəminin ən prioritet məsələsinə çevrilib. Ölkə başçısının sahibkarlığın inkişafına dair çıxışı, bu sahədəki problemləri dilə gətirməsi diqqəti daha çox bu istiqamətə yönəldib.**
**Problemin həllinə dair bəyanatlar verilsə də, iqtisadçılar bunun hələ ki mümkün olmayacağı qənaətindədirlər. Səbəb isə çox sadədir: məmur kapitalizmi. Ölkədə siyasi hakimiyyətlə biznes mühitinin eyni əldə birləşməsi, məmurların bizneslə məşğul olması və azad rəqabətli mühiti pozması, ölkədə inhisarçılıq yaratması sahibkarlığın inkişafı ilə bağlı səslənən mütərəqqi fikirlərin icrasına da əngəl olur.**



**Vahid Əhmədov:** "Təəssüf ki, məmurların sahibkarlıqla məşğul olmasını qadağan edən qanunların işlək mexanizmi yoxdur"



**Natiq Cəfərli:** "Məmurların sahibkarlıq fəaliyyəti Azərbaycanda rəqabətli mühitin sıradan çıxmasına gətirib çıxarır"

Qanunverciliyin icrasına nəzarət edən şəxslərin özlərinin bizneslə məşğul olması həm qanun pozuntularının artmasına, həm də real sahibkarların biznes mühitindən kənarda qalmasına gətirib çıxarır. Ölkədə iqtisadi durumun böhran həddində olduğu zamanda məmur biznesinin aradan qaldırılması və azad rəqabətli bazarın yaradılması problemdən yeganə çıxış yoludur.

Bəs görəsən, məmur kapitalizminin ləğvi üçün hansı addımlar atılmalıdır? Ümumilikdə bu durum ölkə iqtisadiyyatına nə dərəcədə ziyan vurur? Bu məsələnin gündəmə gəlməsi məmur biznesmenlərə qarşı bir savaşın başlaması anlamına gəlirmi?

**"Yeni Müsavat"ın suallarını cavablandıran Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov məmurların bizneslə məşğul olmasının ölkə iqtisadiyyatına vurduğu ziyandan danışdı:** "Məmurların sahibkarlıqla məşğul olması qanunvericiliklə qadağandır. Heç bir məmur sahibkar ola bilməz. Çünki o, birbaşa qanunların icrasına nəzarət edən şəxsdir. Təəssüf ki, ölkəmizdə belə hallar mövcuddur. Belə halların mövcudluğu da sahibkarlığın inkişafına mane olan amillərdən biridir. Son vaxtlar cənab prezidentin atdığı addımlar, apardığı islahatlar, verdiyi fərmanlar, Milli Məclisin qəbul etdiyi bir sıra qanunlar hamısı sahibkarlığın inkişafı ilə əlaqədardır. Buna baxmayaraq, məmurların bizneslə məşğul olması sahibkarlığın inkişafına əngəl olur. Bunun tədricən qarşısı alınmalıdır ki, sahibkarlar daha sərbəst fəaliyyət göstərə bilsin. Təəssüflər olsun ki, bir çox qanunların , eləcə də məmurların sahibkarlıqla məşğul olmasını qadağan edən qanunların işlək mexanizmi yoxdur. Lakin hər kəs bilir ki, dünyanın heç bir ölkəsində məmur sahibkarlıqla məşğul ola bilməz. Artıq dövlət başçısı bu məsələdə iradəsini ortaya qoyub və bu da öz müsbət nəticəsini göstərəcək. Mənim fikrimcə, ölkədə inhisarçılığın səbəbi də elə məhz məmurların sahibkarlıqla məşğul olması ilə əlaqədardır. Əgər bu aradan qaldırılardsa, biz həm də monopoliyanın aradan qalxmasına nail olarıq ki, bu da bizim üçün çox ciddi məsələdir".

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, məmurların sahibkarlıqla məşğul olması ölkədəki inhisarçılıq mühitinin daha da dərinləşməsinə səbəb olur:** "Bildiyiniz kimi, məmurların sahibkarlıqla məşğul olması qanunla qadağandır. Azərbaycan müstəqillik əldə edəndən bəri bu qanun qüvvədədir. Lakin qanundan irəli gələn tələblərə əməl olunmur. Hətta bu qanun pozuntularını məmurlar özləri də bəzən etiraf edib.

Məmurların bizneslə məşğul olması ölkədəki inhisarçılıq mühitinin daha da dərinləşməsinə gətirib çıxarıb. Çünki məmur fəaliyyəti bizneslə birləşəndə ancaq özünə yaxın və özünə aid olan şirkətlərin daha çox vəsait əldə etməsi üçün, bazarda hegemon olması üçün, inhisarçı olması üçün çalışır. Bu da Azərbaycanda rəqabətli mühitin sıradan çıxması ilə nəticələnir. Yəni Azərbaycanda illərdir ən böyük problemlərdən biri rəqabətli mühitin olmaması, inhisarçılığın tüğyan etməsidir. Dövlət başçısı da bunu çıxışlarında deyir. Parlamentdə bir neçə ildir ki, rəqabət məcəlləsi müzakirə olunur, lakin qəbul olunmur. Birinci oxunuşdan keçib, ikinci oxunuşa heç çıxarılmır da. Məmur kapitalizminə qarşı ən yaxşı mübarizə üsulu ədalətli məhkəmə sisteminin bərpa olunmasıdır. İllərdir ölkədə azad, ədalətli məhkəmə yoxdur. Məhkəmə sistemi icra hakimiyyətinin təsiri altındadır".

**İqtisadçı ekspert onu da bildirdi ki, Azərbaycan iqtisadi inkişafını təmin etmək üçün Ümumdünya Ticarət Təşkilatına üzv olmalı və beynəlxalq qanunları tətbiq etməlidir:** "Digər bir önəmli məsələ ondan ibarətdir ki, Azərbaycan Ümumdünya Ticarət Təşkilatına üzv olmaq istəmir. Bunun özü də məmurların sahibkarlıqla mübarizəsinə qarşı bir amildir. ÜTT-yə üzvlük beynəlxalq standartlara uyğun qaydaların tətbiq olunmasına, gömrük və vergi islahatlarına gətirib çıxardardı. Görünən odur ki, hökumət məhz bu məmur kapitalizmindən ciddi gəlir götürən qruplar və şəxslə Azərbaycanın ÜTT-yə üzv olmasını istəmir və illərdir bu prosesi uzadır. Bu deyilən problemlərlə bağlı irəliləyiş əldə olunmasa, məmur kapitalizmini yox etmək də mümkün olmayacaq. Bu problem hər zaman mətbuatda qabardılır və heç bir irəliləyiş olmadığına görə sonda unudulur. Ona görə də Azərbaycanın hazırkı iqtisadi durumunda bu məsələ acil həll olunmalı məsələlərdən biridir. Mütləq Rəqabət Məcəlləsi qəbul olunmalıdır. Məhkəmələrin azadlığı təmin olunmalıdır və Azərbaycan ÜTT-yə üzv olmalıdır".

**"Sahibkar məmurlara qarşı qanunvericiliklə mübarizə aparılmalıdır" - deyən ekspert tək inzibati yolla da bu məslənin həllinə nail olmağın mümkünsüzlüyünü ifadə etdi:** "Buna ciddi siyasi iradə lazımdır. Hökumət bu məsələdə davamlı siyasət yürütməli və bizneslə məşğul olan məmurların qarşısında seçim qoymalıdır. Bunun bir yönü də maliyyə amnistiyasından keçir ki, bu da böyük bir məsələdir. Azərbaycan nə vaxtsa bu addımı atmalı olacaq. Çünki ölkədə həm siyasi, həm iqtisadi vəziyyətin normallaşması üçün insanların bu günə qədər əldə etdikləri vəsaiti itirməkdən qorxmaması üçün mütləq maliyyə amnistiyası olmalıdır. Ancaq bunun şərtləri və hansı formada olması ciddi müzakirə mövzusudur. Elə etmək lazımdır ki, maliyyə amnistiyası həm dövlət büdcəsinə xeyir gətirsin, həm də məmurların biznes çevrələrindən uzaqlaşması və ya məmur postundan imtina edərək bizneslə məşğul olması təmin olunsun".

❑ Nərgiz LİFTİYEVA



# Robert Sekuta Bərdədə oldu

## "1992-ci ildən ABŞ azərbaycanlılara kömək üçün 1.5 milyard dollardan çox vəsait ayırıb"

**ABŞ-ın Avropadakı hərbi idarəsinin vasitəçiliyi ilə Bərdə rayonunun (Bakıdan 305 kilometr qərb) Yeni Daşkənd, Alxaslı və Ərdüşlü kəndlərində su sistemlərinin təkmilləşdirilməsi sahəsində üç humanitar layihə həyata keçirmək təşəbbüsü irəli sürülüb. Layihəyə ABŞ səfirliyinin Hərbi əməkdaşlıq idarəsi nəzarət edəcək.**

ABŞ səfirliyinin məlumatına görə, noyabrın 5-də ABŞ səfiri Robert Sekuta və Azərbaycanın rəsmi şəxsləri layihələrin təməlqoyma mərasimində iştirak edib.

Səfir Robert Sekuta Bərdənin Yeni Daşkəndə kəndində məcburi köçkün icmalarının su təchizatı layihəsinin təməlqoyma mərasimində çıxış edib.

O bildirib ki, bu layihə ABŞ Müdafiə Nazirliyinin Humanitar Yardım Proqramı ilə Birləşmiş Ştatların icra etdiyi üç yeni su layihəsindən biridir. Digər iki layihə Ərdüşlü və Alxaslıdadır. Bu üç layihə 670 ailənin və ya 3300-dən çox qaçqın və məcburi köçkünün su təchizatını yaxşılaşdıracaq.

"ABŞ 1992-ci ildən azərbaycanlılara güclü, sabit, çiçəklənən, demokratik Azərbaycan qurulmasında kömək etmək və Dağlıq Qarabağ münaqişəsindən zərər çəkmiş insanların ehtiyaclarını qarşılamaq üçün layihələr icra edir. Bu layihə həmin layihələrin davamıdır.1992-ci ildən ABŞ azərbaycanlılara kömək etmək üçün 1.5 milyard dollardan çox vəsait ayırıb. USAID, Hərbi Əməkdaşlıq Ofisi və ABŞ-ın digər təşkilatları məcburi köçkünlər üçün layihələrə 115 milyon dollar ayırıb. Bu layihəni ABŞ Avropa Komandanlığı, ABŞ Ordu Mühəndislər Korpusunun köməyi ilə ABŞ səfirliyinin Hərbi Əməkdaşlıq Ofisi icra edəcək".

Səfirin sözlərinə görə, 2003-cü ildən ABŞ Müdafiə Nazirliyi məcburi köçkünlər üçün 17 humanitar yardım, məktəb tikintisi və su layihəsi üçün 4 milyon dollar ayırıb.

"Bu layihələr məcburi köçkünlərin şəraitini yaxşılaşdırmağa hazır olduğumuzu göstərir. Birləşmiş Ştatlar ATƏT-in Minsk Qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün səylərini davam etdirir. Məcburi köçkünlərin və qaçqınların ehtiyaclarının qarşılanması bu səylərin vacib hissəsi olacaq. Səfir Uorlik regiona son səfərində dedi ki, "Harda yaşamalarından asılı olmayaraq qaçqınlar və məcburi köçkünlərin evlərinə qayıtmasına şərait yaradılmalıdır". Bu layihələr yerli icma liderlərinin köməyi ilə Birləşmiş Ştatlar və Azərbaycan hökumətlərinin birgə nailiyyətinin bariz nümunəsidir. Bu, ölkələrimiz arasında əməkdaşlığın, dostluğun vacibliyini göstərir. Azərbaycanlılar uğurlu, güclü və inkişaf edən ölkə qurarkən amerikalıların azərbaycanlıların yanında olmaq və kömək etmək əzmini göstərir", səfir qeyd edib.

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015



# Korun-korun yanan ocaq

Xalid KAZIMLI

**Din, dövlət, cəmiyyət münasibətləri baxımından ölkəmiz nə qədər sabit görünsə də, hər şeyin nəzarətdə, qanunlar çərçivəsində olmasına dair iddia və qənaətlər olsa da, heç kəs dana bilməz ki, bu sahədə də problemlər var.**

Azərbaycan elə bir geosiyasi qovşaqda yerləşir ki, burada o cür problemlərin olmaması mümkün deyil.

Hələ bəxtimiz gətirib ki, cəmiyyətimiz tarixən maarifpərvər olub, daima cəhalətdən uzaq olmağa, xurafatlara uymamağa çalışıb və müəyyən məsafə qət edib.

Bununla belə, dövlət müstəqilliyimizi bərpa etdikdən sonra müxtəlif dini cərəyanların, məzhəb və təriqətlərin ölkədə boy göstərməsi, bir-birilə güzəştsiz mübarizədə olması bu ölkədə dini sahənin nəzarət altında saxlanılmasını vacib edir.

Məzhəb davası aparan ölkələrin (Pakistan, Əfqanıstan, Yəmən, Suriya, İraq və s.) gününü görürük: bir həftə məscidi partladır, möminləri kütləvi şəkildə qətlə yetirirlər, o biri həftə camedə partlayış törədir, ibadətlə məşğul olan dindarları həlak edirlər.

Ölkəmizdə eyni dinə, eyni peyğəmbərə inanan, ancaq müxtəlif məzhəblərdə birləşən yüz minlərlə insan var ki, dövlət nəzarətinin basqısıyla qarşılıqlı nifrətlərini boğurlar. Hələlik onların gərgin münasibətləri öz ibadət yerlərində toplaşarkən bir-birinin ünvanına işlətdikləri ağır sözlərdən, qarğışlardan o tərəfə keçmir.

Ortada dövlət hasarı olmasaydı, dövlət strukturları tərəfləri total nəzarətdə saxlamasaydılar, durum çox vahiməli olardı.

Bu üzdən regiondakı bir sıra ölkələrdə açıq müharibə səciyyəsi almış məzhəblərarası konflikt ölkəmizdə korun-korun yanan ocaq kimidir: yavaş-yavaş közərir, hərdən tüstüləyir, alovlanmağa başlayanda dövlət üfürüb söndürür.

Zaman-zaman yaranan gərginliklər, vaxtaşırı aparılan həbslər qələmə verildiyi kimi, heç də dini dəyərlərə hörmətsizliyə, möminlərə təzyiq edilməsinə görə deyil, bir-birilə çəkişən sektaların çoxalmaq, cəmiyyətə tam sirayət etmək, nüfuz, söz sahibi olmaq çabalarına qarşı göstərilən müqavimətdən irəli gəlir.

Açığı budur, ölkəmizdəki möminlərin bir xeylisi yalnızca ibadətlə məşğul olmaq, öz mənəvi dünyalarına qapılmaq fikrində deyillər, məhz ictimai-siyasi planda fəaliyyət göstərmək, dövləti və cəmiyyəti özlərinə ram edə bilən təşkilatlar qurmaq, şəriət rejimi tətbiq etmək niyyətindədirlər.

Əvvəllər bu niyyətlər bir xeyli dərəcədə pərdələnirdi, bəzi dini dairələr maneəsiz olaraq öz ruhani ehtiyaclarının ödənməsi üçün şərait yaradılmasına, dini ayinlərin sərbəst şəkildə keçirilməsinə çalışdıqlarını deyirdilər.

Ancaq son vaxtlar artıq bir çox şeylər pərdələnmir, şəriət rejimindən irəli gələn qadağaların tətbiqi tələbləri artmaqdadır. Qadınlar üçün xüsusi nəqliyyat növlərinin təşkili, hətta metroda sonuncu vaqonların sırf qadınların üçün nəzərdə tutulması tələb-tövsiyələri həmin xanədəndir.

Tərəqqipərvər filosoflar hələ 200-250 il bundan əvvəl dövlətin dindən ayrılması ideyası ilə çıxış edərkən əmin idilər ki, bəşər oğlunun hərtərəfli inkişafı üçün başqa yol yoxdur, dövləti dini ehkamlarla idarə edərək xoşbəxt, firavan cəmiyyət qurmaq mümkün deyil.

Onların nə dərəcədə haqlı olduqlarını bu gün Skandinaviya ölkələrinin, eləcə də Avropa dövlətlərinin tam əksərinin timsalında görmək olar.

Bizdə o ölkələr haqqında yanlış təsəvvürlər var, bir çoxları onları pozğunluqda, əxlaqsızlıqda ittiham edirlər. Ancaq Avropada və Amerikadakı Allah evlərinin, eləcə də möminlərin sayı Şərq ölkələrindəkindən qat-qat çoxdur, az qala hər küçənin öz ibadət evi var.

Bu məsələdə iki əsas fərq var: Biri odur ki, Avropa və Amerikadakı ibadət evləri bizdəki kimi yalnız dini mərasimlərin icrası zamanı dolmur, onlarda o evlər bir gün də boş qalmır. İkincisi isə, o evlərə toplaşanlar sırf ibadət üçün gəlirlər, dinməz-söyləməz ibadətlərini edir, dini musiqiyə qulaq asır, dağılışırlar. Daha durub dövlətin daxili və xarici *(xüsusilə də qonşularla münasibətinə dair)* siyasətini korrektə etməyi, şəriət rejiminin bərqərar olunması üçün planları müzakirə etmirlər.

Hərdən müxalif qüvvələr sırf konyuktura naminə, “düşmənimin düşməni mənim dostumdur” prinsipi ilə cəzalandırma tədbirlərinə məruz qalan sektantlara havadarlıq etmək istəyirlər, ancaq unudurlar ki, o qüvvələrin başlıca düşmən bildikləri qüvvələr məhz müxaliflərdir, onların müdafiə etdiləri dəyərlərdir. Radikal dini qüvvələr azad seçki istəyən demokratik qüvvələri “Qərbin uşaqları” elan edirlər və ilk növbədə onları sıradan çıxarmağı düşünürlər.

# Sahibkarların daha bir qənimi - icra başçıları...

**Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev Azərbaycanda sahibkarlıq fəaliyyətinə qarşı törədilən əngəllərlə bağlı çox sərt çıxış edib. Prezident verdiyi mesajlarla dövlətin iş adamlarının, sahibkarlıq subyektlərinin yanında olduğunu rəsmən bəyan edib.**

**Ölkə rəhbərinin dediklərindən anlaşılan odur ki, orta təbəqənin sıradan çıxarılması ilə bağlı aparılan əməliyyatlar uzun müddət ən yuxarı dairələr üçün sirr olub.**

Elə prezidentin faktlardan heyrətlənməsi də bunun əlaməti kimi qəbul olunur. **Sitat:** “Son vaxtlar sahibkarlarla bağlı faktlar üzə çıxır. Bu, dəhşətli faktlardır. Onlara qarşı əsassız tələblər irəli sürülüb. Onların əmlakı bəzi hallarda əllərindən alınıb. Onlardan külli miqdarda rüşvət alınıb, bəzi hallarda reketlik edilib. Ona heç rüşvət də demək olmaz. Rüşvət o vaxt verilir ki, kimsə nə isə etmək istəyir, işi asanlıqla getsin deyə rüşvət verir. Amma bəzi hallarda, sadəcə olaraq, sahibkarların əlindən əmlak, vəsait alınır, onlara hədə-qorxu gəlirdilər, işgəncələr verirdilər. Ona görə ədalətli məhkəmə sistemi bu faktlara adekvat qiymət verməlidir”. **Ölkə rəhbəri qeyd edib ki, qanunsuzluqlarla bağlı faktlar hər bir ölkədə var:** “Amma mən istəyirəm ki, Azərbaycanda olmasın. Mən istəyirəm ki, Azərbaycanda hər şey ədalətli olsun. Əminəm ki, siz də bunu istəyirsiniz, Azərbaycan xalqı da bunu istəyir”...

“MTN işi” ilə əlaqədar ortaya çıxan mətləblər sahibkarlara tutulan divanlarla bağlı xeyli faktların aşkarlanmasına imkan verdi. Ancaq əlimizə çatan məlumatlar onu deməyə əsas verir ki, iş adamları heç də nazirliklər və ya onların adından sui-istifadə edənlər tərəfindən “çarmıxa çəkilmir”. Belə ki, qanunları tapdamaqda, iş adamlarına addımbaşı problemlər yaratmaqda bir sıra “balaca padşahlar”, rayon icra hakimiyyətinin başçıları da xüsusi rol oynayırlar. Bu barədə sahibkarlardan gələn şikayətlər də deyilənləri təsdiqləyir. Elə təkcə son günlərin monitorinqini aparsaq, görərik ki, bir icra başçısı fermerlərə divan tutur, digəri hansısa nazir-olqarxa arxalanıb sahibkarlardan xərac yığır, başqası isə hətta Heydər Əliyevin akademik Ziya Bünyadovun ailəsinə bağışladığı torpaq sahəsini başqa vətəndaşlara satıb. Bir neçə gün əvvəl iş adamı olan xanım da redaksiyamıza gələrək icra başçısının ona məxsus torpaq sahəsini fərdi yaşayış evlərinin tikilməsi məqsədilə satdığını demiş, ölkə başçısına müraciətlə haqlarının bərpa olunmasını istəmişdi. Belə faktlar isə onlarla deyil, daha çoxdur. Bir sıra sahələrdə yoxlamalar dayandırılıb, fəaliyyət sahələri ASAN-laşıb. Ancaq icra başçılarının “Domokl qılıncı” hələ də vətəndaşların başı üstə asılıb. Bəs hətta intihara əl atan sahibkarları icra hakimiyyətlərinin - “kiçik padşah”ların əlindən necə xilas etmək olar?



**Azər Mehtiyev:**
“Yerli icra hakimiyyətlərinin səlahiyyətləri məhdudlaşdırılmalı, onların məsuliyyət mexanizmləri yaradılmalıdır”



**Fikrət Yusifov:**
“Prezidentin ”cəmiyyətdə heç kim toxunulmaz ola bilməz" deməsi, onun bu məsələdə heç kəsə güzəştə getməyəcəyi anlamına gəlir"

**İqtisadi Təşəbbüslərə Yardım Mərkəzinin rəhbəri, tanınmış iqtisadçı Azər Mehtiyev məsələnin sadə yolunu göstərir:** “Vəziyyəti yaxşılığa doğru dəyişmək üçün yerli icra hakimiyyətlərinin səlahiyyətləri məhdudlaşdırılmalı, onların məsuliyyət mexanizmləri yaradılmalıdır. Prezidentin 6 iyun 2012-ci il tarixli 648 saylı Fərmanı ilə təsdiq edilmiş ”Yerli icra hakimiyyəti haqqında Əsasnamə" ilə şəhər və rayon icra hakimiyyəti başçıları onlara həvalə edilmiş ərazidə hakimi-mütləqdirlər. Onların funksiya və səlahiyyətləri son dərəcə genişdir, bu qədər geniş funksiya və səlahiyyətlər qarşılığında onların məsuliyyəti yalnız “prezident qarşısında şəxsi məsuliyyət” xarakteri daşıyır". A.Mehtiyev də təsdiqləyir ki, əslində son zamanlar ölkədə sahibkarlığın inkişafına olan ən ciddi maneələrdən biri məhz yerli icra hakimiyyətləridir: “Digər qurumlar konkret məsələlərlə bağlı iş adamlarını sıxırdılarsa, yerli icra hakimiyyəti qurumları istənilən məsələ ilə bağlı, hətta heç bir səbəb olmadan belə, iş adamlarını sıxışdıra bilirdilər. Hətta iş qurmaq istəyən sahibkar buna nail olmaq üçün ya ciddi bir məmurun ”adamı" olmalı, ya da yerli icra qurumları ilə bu və ya başqa formada ortaq olmağa - ya da aylıq haqq ödəməyə - razı olmalı idi".

**Sabiq maliyyə naziri, “Ekonomiks” Beynəlxalq İqtisadi Araşdırmalar Birliyinin sədri Fikrət Yusifov da qəzetimizə açıqlamasında maraqlı fikirlər söylədi:** “Prezident İlham Əliyev noyabrın 4-də Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılış mərasimində çıxışında ölkədə korrupsiya və rüşvətxorluğun aradan qaldırılması istiqamətində bundan sonra daha ciddi addımların atılacağının anonsunu verdi. Prezidentin ”korrupsiya dövlətimizin dayaqlarını sarsıdır, inkişafı, azad rəqabəti əngəlləyir, müəyyən dərəcədə inamsızlıq yaradır" kimi qətiyyətlə deyilmiş fikirləri onun bu məsələdə mövqeyinin tam barışmaz olduğunu bir daha ortaya qoydu. Azad sahibkarlığın inkişafı yolunda dövlət səviyyəsində atılan ciddi addımların qarşısında bir əngələ çevrilən məmur özbaşınalığı və yerlərdəki ayrı-ayrı səlahiyyət sahiblərinin maddi maraqlarından qaynaqlanan qanunsuz fəaliyyət formaları ilə mübarizə son zamanlar çox ciddi fazaya daxil olub. Prezidentin “cəmiyyətdə heç kim toxunulmaz ola bilməz” deməsi, onun bu məsələdə heç kəsə güzəştə getməyəcəyi anlamına gəlir". **F.Yusifovun sözlərinə görə, vətəndaşlarımız, xüsusilə də iş adamları ölkə başçısının bu mövqeyini ürəkdən bəyənir və dəstəkləyirlər:** “Lakin yerlərdəki bəzi məmurların, o cümlədən bəzi icra hakimiyyəti nümayəndələrinin bu görülən işlərə kölgə salan əməlləri insanların əhval-ruhiyyəsini pozur, iş adamları öz fəaliyyətlərini lazım olan səviyyədə qura bilmirlər və bu da sonda cəmiyyətdə narazılıqlara gətirib çıxarır. Bir məsələ hər bir məmura aydın olmalıdır: dövlət ölkədə azad sahibkarlığın inkişafı yolunda nə qədər qətiyyətli addımlar atırsa, bu addımlara mane ola biləcək rüşvət və korrupsiyaya qarşı da beləcə ciddi tədbirlər görəcək. Hesab edirəm ki, dövlətin korrupsiya və rüşvətxorluğa qarşı apardığı mübarizədə vətəndaşlarımız da fəal iştirak etməlidirlər. Prezident dəfələrlə ictimai nəzarətin umumi işimizə verə biləcəyi faydanın böyük ola biləcəyini vurğulayıb. Bu səbəbdən hər bir iş adamı, hər bir sahibkar onun fəaliyyətinə əngəl törədənləri ifşa etməkdən çəkinməməlidir. İnkişaf etmiş ölkələrdə ictimai nəzarət çox böyük səmərə verir. Bax, biz bu yolda ciddi irəliləyişə nail olmalıyıq”.

❑ Cavid TURAN

**Ümid Partiyasının sədri İqbal Ağazadə ilə bağlı gərginlik davam edir. Onun deputatlığa namizəd olduğu 35 saylı Xətai üçüncü seçki dairəsinin nəticələrindən ciddi şikayətlər var və namizədin seçkinin qalibi olma ehtimalı hələ də qalır. Ancaq bu, baş verməzsə, Ümid sədri hansı addımı atacaq? Yəni İ.Ağazadə parlamentə düşməsə, aidiyyəti şikayətləri qəbul olunmasa və mandatsız qalsa, müxalifətlə əməkdaşlığa gedəcəkmi? Həmçinin müxalifət onunla əməkdaşlığa can atacaqmı? Çünki müxalifətin bir neçə il əvvəl Ümid sədri ilə bağlı əsas tələblərindən biri o idi ki, İ.Ağazadə deputat mandatından imtina edəcəyi təqdirdə, onunla əməkdaşlıq edilə bilər.**

# Müsavat və Ümid sədrlərindən bir-birinə sərt mesajlar



**İqbal Ağazadə:** "Əgər bizə əməkdaşlıq təklif olunarsa..."



**Arif Hacılı:** "İqbal Ağazadəyə əməkdaşlıq təklif etmək fikrimiz yoxdur"

**İqbal Ağazadə** məsələ ilə bağlı musavat.com-a bildirdi ki, əməkdaşlıq təklifi qarşı tərəfdən gəlməlidir və bu halda o, fikirləşə bilər: "Biz düşüncə müxalifətiyik. Düşüncələrimiz uyğun gələn hər partiya ilə əməkdaşlıq edəcəyik, uyğun gəlməsə, etməyəcəyik".

**Bəs Müsavat, KXCP və digər müxalifət partiyaları ilə Ümidin düşüncələri uyğun gəlirmi? İ.Ağazadənin sözlərinə görə, uyğun gələn məqamlar var:** "Çoxdur. Bu barədə də əməkdaşlıq etmişik. Hətta seçkidən əvvəl əməkdaşlıq etmişik. Ancaq biz əməkdaşlıqla bağlı təklif etməyəcəyik. Təklif gəlsə, dəyərləndirəcəyik". O, siyasi partiyalardan Ümidə əməkdaşlıq təklifi gələcəyini də istisna etmədi.

**Müsavat Partiyasının başqanı Arif Hacılı isə qeyd etdi ki, hazırda fərqli situasiyadır və təklif olmayacaq:** "Ümidlə bağlı indi fərqli siyasi vəziyyətdir. Fakt ondan ibarətdir ki, o zaman İqbal Ağazadə mandatdan imtina etməyib. Ancaq bütün məsələlər müzakirə oluna bilər. Əgər İqbal Ağazadə Müsavat Partiyası ilə əməkdaşlıq etmək barədə bizə müraciət etsə, bu, partiyamızın strukturlarında müzakirə olunacaq. Eyni zamanda bütün siyasətçilərə, siyasi təşkilatlara bizim münasibətimiz onların davranışlarından asılıdır. İqbal Ağazadəyə və onun təmsil etdiyi təşkilata da münasibətimiz onların bundan sonrakı davranışlarından asılı olacaq. Müsavatın İqbal Ağazadəyə əməkdaşlıq təklif etmək fikri yoxdur".

**A.Hacılının sözlərinə görə, hər hansı, xüsusi bir siyasi vəziyyət yetişərsə, elə o vəziyyətə uyğun bu məsələləri müzakirə edəcəklər:** "Xüsusi vəziyyət isə 2016-cı ildə yetişə bilər. Çünki Azərbaycan hakimiyyəti xalqın etimadı ilə, xalqdan aldığı mandatla yox, maliyyə vəsaitləri hesabına ölkəni idarə edir. 2016-cı ildə isə Azərbaycana daxil olan maliyyə vəsaitləri və hakimiyyətin sərəncam vermək imkanı olan maliyyə vəsaitləri əsaslı surətdə azalacaq".

**KXCP sədri Midmahmud Mirəlioğlu isə bildirdi ki, hazırda Ümidlə KXCP arasında əməkdaşlıq məsələsi aktual deyil:** "Bu, hazırda bizim üçün aktuallıq kəsb edən məsələ deyil. Ümid sədri kiminlə istəsə bir yerdə fəaliyyət göstərə bilər, kiminlə istəməsə, etməz. Bu, hər kəsin şəxsi məsələsidir. Noyabrın 15-də KXCP Ali Məclisinin sessiyasıdır. Ancaq həmin sessiyada da bu məsələnin müzakirəsi gözlənilmir. Hesab edirəm ki, parlament seçkilərindən sonra bir az da gözləmək lazımdır, dəyərləndirmək lazımdır. Qoy yerindən tərpənən daşlar yerbəyer olsunlar. Yeri gəlmişkən, xatırladım ki, bu il parlament seçkiləri ilə bağlı yaradılan "Azadlıq-2015" seçki blokunda İqbal Ağazadə təmsil olunmaq istəmədi. Biz blok yaranan zaman ona da müraciət etmişdik, o da belə hesab etdi ki, bu blokda olmasın".

❑ Röya RƏFİYEVA

# Siyavuş Novruzov Rza İbadovun əfvindən danışdı

## "YAP-a üzvlük üçün müraciət etsə, məsələ partiyanın rəhbərliyində müzakirə olunacaq və müvafiq qərar veriləcək"

**Xəbər verildiyi kimi, illərdir Londonda yaşayan sabiq deputat Rza İbadov barəsində axtarış dayandırılıb. Məlumata görə, Rza İbadov barəsində olan axtarış işinə Nəsimi Rayon Məhkəməsinin 27 oktyabr 2015-ci il tarixli qərarı ilə xitam verilib.**



Siyavuş Novruzov

Sabiq deputat strateq.az-a açıqlamasında yaxın günlərdə Azərbaycana gələcəyini bildirib. "Mənim üzərimdən axtarış qərarının götürülməsinə görə cənab prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm. Həmçinin bu işdə köməyi keçmiş hər kəsə təşəkkür edirəm". R. İbadov bəyan edib ki, bu illər ərzində Azərbaycandan kənarda yaşasa da, həmişə dövlət başçısına sadiq olub: "Mən son 10 ildə xarici ölkədə yaşasam da, həmişə prezident İlham Əliyevə sadiq olmuşam. Son 25 il ərzində içində olduğum siyasi proseslərdə həmişə bu xətti yürütmüşəm. Bir-iki həftəyə Bakıya qayıdacağam".

Qeyd edək ki, Rza İbadov 1990-1995-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üzvü olub, eyni zamanda Gənclər və idman komissiyasının sədri işləyib. 1995-2000-ci illərdə isə Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Beynəlxalq Münasibətlər və Parlamentlərarası əlaqələr komissiyasının sədri olub. O, Londonda yerləşən ABŞ-ın Huron Universitetində beynəlxalq münasibətlər üzrə magistr, sonra Fransa Beynəlxalq Münasibətlər institutunun nəzdində fəaliyyət göstərən Strateji və Diplomatik Tədqiqatlar Mərkəzində beynəlxalq münasibətlər üzrə doktorluq dərəcələri alıb. 2010-cu ildə parlament seçkilərindən sonra ona Cinayət Məcəlləsinin 148-ci (təhqir) və 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddələri ilə cinayət işi başlanıb. Bu zaman Rza İbadov Londona gedib. Onun barəsində axtarış elan edilib.

Maraqlıdır, hakim partiya R.İbadovun əfvinə necə yanaşır?

**YAP-ın icra katibinin müavini Siyavuş Novruzov "Yeni Müsavat"a bildirdi ki, bu məsələnin hakim partiyaya aidiyyəti yoxdur:** "Ona görə də bu adamla bağlı YAP-ın hər hansı mövqe bildirməsi doğru olmazdı". Maraqlıdır, R.İbadov Bakıya döndükdən sonra YAP-a üzvlüklə bağlı müraciət etsə, reaksiya necə olar? S.Novruzov: "Bu məsələ partiyanın rəhbərliyində müzakirə olunacaq və müvafiq qərar veriləcək". YAP funksionerindən bir məsələ barədə də soruşduq. Əgər digər mühacir tanınmışlar, məsələn, Rəsul Quliyev və ya Hüseyn Abdullayev kimi şəxslər də ölkəyə qayıtmaq üçün müraciət edərsə, ona reaksiya necə olar? S.Novruzov dedi ki, bununla bağlı həmin şəxslər və hüquq-mühafizə orqanları qərar verə bilər.

❑ Cavid TURAN

# Mərkəzi Bank banklara gizli göstəriş verib

## Ekspertlər bankı ittiham edir: "MB niyə ölkəni xarici valyutasız qoyub?"





**Mərkəzi Bank banklara müştərilərinə yüz min manatdan artıq nağd pul verməmək barədə göstəriş verib. Bu, rəsmi rərar deyil. Bildirilir ki, banklara şifahi şəkildə göstəriş verilib. Ekspertlər bu addımı ölkədən valyuta axınının çıxmasının qarşısını almaq cəhdi kimi qiymətləndirirlər.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı bildirib ki, Mərkəzi Bank banklara şifahi göstəriş verib: "Yəni müştərilərə birdəfəlik 100 000 manatdan çox nağd pul verməsinlər. Həmçinin müştəriləri xaricə 100 000 manatdan çox pul köçürməyə qoymasınlar. Bu, həqiqətdirsə, bunun ancaq bir səbəbi ola bilər: ölkədən xarici valyuta axınının qarşısının alınması. Mən fevral ayından bu yana dəfələrlə demişəm ki, Mərkəzi Bank növbəti devalvasiyaya getməmək üçün təcili olaraq valyuta axınının qarşısını almaq məqsədilə normativ tələblərini sərtləşdirilməlidir. Nəhayət ki, Mərkəzi Bank mən deyəni etməyə başlayıb. Lakin Mərkəzi Bank bunu çox gec etməyə başladı. Valyuta ehtiyatlarının xeyli hissəsini itirəndən, valyutanın böyük hissəsinin xaricə qaçmasından və növbəti devalvasiya üçün tam şərait yaratdıqdan sonra. Ümumiyyətlə, bununla bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılması yaxşı olardı. Mərkəzi Bankın rəhbərliyi bu labüd qərarı niyə bu qədər gecikdirdi və ölkəni xarici valyutasız qoydu? Maraq nə idi? Mərkəzi Bankın rəhbərliyi kimlərin mənafeyinə qulluq edir? Ən əsası isə Mərkəzi Bank ənənəsinə sadiq qalaraq düzgün addımlarını belə qanunsuz formada həyata keçirir. Əvvəllər banklara qanunsuz məktublar yazırdı. Mən bir neçə dəfə banklara məktub formasında göstəriş verilməsinin qanunsuz olduğunu demişəm, bu haqda hətta iri həcmli məqalə də yazmışam. Yəqin buna görə də Mərkəzi Bank indi şifahi göstəriş formasına keçib ki, iz qoymasın. Lakin təbii ki, bu da qanunsuzdur".

**Ekspertin sözlərinə görə, Mərkəzi Bank tərəfindən banklar üçün qayda müəyyən etməyin yalnız bir qanuni forması var: normativ xarakterli akt qəbul etmək və Ədliyyə Nazirliyində dövlət qeydiyyatına aldırmaq.** "Banklar hər hansı şifahi göstərişə əməl etməyə məcbur deyil. Həm də ki, bank müştərisinə bu qadağanı necə izah etsin? Axı bankın müştəriyə 100 000 manatlıq qadağa qoyması qanunvericiliyə zidd indiki şəraitdə. Müştəri buna görə həmin bankı məhkəməyə versə, Mərkəzi Bank onunla məsuliyyəti bölüşəcək? Əlbəttə, yox! Çünki banklara belə də deyib: "Bizim adımızı çəkməyin". Bankları yenə müştəriləri ilə üz-üzə qoyurlar. Bir sözlə, həmişəki kimi, Mərkəzi Bank qanunsuz qərarlar verir və onları izah etmir. Nəticədə banklar yenə də pis vəziyyətdə qalacaq, bank sistemi daha da zəifləyəcək, əhali təlaş içində olacaq. Kimə lazımdır belə Mərkəzi Bank?"

❑ RÖYA



# Bezdirici kanadalı

**Zamin HACI**
zaminhaci@gmail.com

**Qədim türk yurdu Kanadada (yəqin hörmətli oxucularımız agahdır, bunun adı "kənd" sözündən götürülüb, yerli hindu qəbilələri vaxtilə bizim dildə danışıblar) təzəlikcə parlament seçkiləri keçirilib, eynən bizdəki kimi, deputatxana üzvlərinin 95 faizini təzədən aparıb qoyublar kreslolarına. Çünki kreslonun ölçüsü deputatın oturacaq hissəsinə uyğun düzəldilib, bir deputat minimum 25 il gərək yerindən tərpənməsin. Hər təzə deputatın oturacaq hissəsinə uyğun kreslo qayırsan dövlətin iqtisadi büdcəsinə böyük ziyan olar. Nəyə lazımdır?**

Əlbəttə, Kanadada deputatxana seçkisinin bizə bənzəməsini zarafat üçün yazdım. Mənim belə səviyyəsiz yumorlarımı hələ çox oxuyacaqsınız - deyilənə görə qabaqdan iqtisadi böhran gəlir. Hərçənd, mən dəqiq bilirəm ki, böhranın millətimizə təsiri olmayacaq, uzağı hamımız dua eləyəcəyik, əlimizi göyə qaldırıb bu epoxadan sakitcə keçəcəyik. Belə şeylərdən dəlisov toplumlar qorxsun.

Kanada seçkilərinə dönsək, orda doğrudan da müxalifətçi Liberal Partiya qalib gəlib və Tryudo soyadlı bir 41 yaşlı oğlanı ölkəyə baş nazir qoyublar. Məni bezdirən və bu etiraz yazısını qələmə almağa vadar edən həmin Tryudo-dur. Vallahi, bizi boğaza yığıbdır!

Hansı səhifəni açırsan, hansı xəbər lentinə baxırsan görürsən orda bu oğlanın dişini ağardan şəkli qoyulubdur. Altından da "Baş nazir öz kabinetinin 50 faizini qadınlardan seçdi", "Kanadanın müdafiə naziri hind mənşəli sikh xalqının nümayəndəsi oldu", "Fiziki məhdud vətəndaş və qaçqın da nazir qoyuldu" və sairə. Hətta bir yerdə yazmışdılar bu baş nazir gəncliyində nəşə çəkdiyini etiraf edib. Hiss olunur. Yoxsa ağlı başında olan baş nazir də belə kabinet qurar?

Özü də guya kiməsə acıq verirlər. Guya Kanada bu cür Nazirlər Kabineti ilə dünyada insan haqlarına önəm verdiyini göstərir. Mənasız söhbətdir. Ona qalsa bizim baş nazir Artur müəllimin hardasa 450 yaşı var, bu müddətdə bir naziri də özü qoymayıb. Vaxtı yoxdur belə xırda şeylərə! Başını qaşımağa imkan tapmır, sutkada 25 saat xalq üçün çalışır. Nazirlər gəlir, gedir, baş nazirimiz isə dəyişilmir. Ona görə Kanada inkişaf baxımından bizə çata bilmir. İl uzunu hər yeri qarla örtülü qalır. Yaşanası yer deyil. Evdən çıxırsan, bəzən adamı ağ ayı yeyir. Marallar küçədə arvad-uşağı buynuzlayır. Elə bil 92-93-cü illərin AXC-Müsavat cütlüyü dövrüdür.

Qaçqının nazir qoyulmağına gələndə, bizdə 1 milyon qaçqın var, hamısı nazirdən yaxşı yaşayır. Dövlətimiz şəhərlər tikib verib. Hamısı seçki məntəqəsində işləyir. Bəziləri deputat, polis rəisi, nazir, prokuror qoyulur. Hətta hökumət söz verib, deyir özünüzü yaxşı aparsanız Putindən beş-altı rayon alıb sizə yardım verərik. Belə şeylərlə bizə fors eləmək olmaz.

Bir jurnalist də dünən mənə zəng vurub deyir, bəy, nazirlərin öz qohum-əqrəbalarını vəzifəyə qoymasına necə baxırsınız. Düzü, bilmədim nəsə yazdımı, ancaq fikirlərmi burdan oxuculara çatdırmaq istərdim.

Əlbəttə, hər bir hökumət nümayəndəsi qohumlarına vəzifə verməkdə haqlıdır. Başqa kimə etibar eləsin? Dövlət işinin yaxşı getməsi üçün qohumları gərək altına yığasan. Bax, Ziya müəllimin qardaşının, oğul-uşağının əlindən avtovağzalı aldınız, xeyir elədiniz? Odur ha, həmin gündən bəri avtovağzal buz üstünə çıxan danaya dönüb, eyzən sürüşür. O divarı tuturlar, bu divar qaçır. Bu tərəfi yamayırlar, o tərəf süzülür. Səbəb isə bircə dənədir: gərək işi qohuma tapşırasan.

Gərək Tryudo da Kanadadakı qohumlarını nazir qoyardı. Məncə, o dövlətin axırı yaxşı olmayacaq, sabitlik pozulacaq. Bayraqlarındakı çinar yarpağı saralacaq, düşəcək.

Ta bizi də o baş nazirin şəkli ilə şantaj eləməyin. Bizim öz suveren baş nazirimiz var. Gör heç kiməsə göz dağı veririk? Artur müəllimin fotosessiyasını eləsək bir nəfər Tryudo-ya baxmaz. *(İndi ağlıma gəldi, məncə, bu kanadalı soyadını Artur müəllimin adına bənzətmək istəyibdir).*

# Prezidentin son qərarlarının pərdəarxası



# Eldar Mahmudovun həbsi anonsu - "reketlik edilib"

## MTN-də baş verənlərlə bağlı dövlət başçısının sərt çıxışı kimsəyə güzəşt edilməyəcəyi deməkdir; sabiq nazirin həbsi iqtidarda MTN-ə bağlı, eləcə də onunla əks qruplarda yer alanları da hərəkətə keçirəcəyi və nəticədə hakimiyyət daxilində gərginliyin artacağı nəzərə alınaraq ertələnib, indi isə...

**Prezidentin oktyabrın 17-də imzaladığı sərəncamla milli təhlükəsizlik naziri vəzifəsindən azad edilən Eldar Mahmudovun həbsinə hazırlıq gedir. Bu barədə "Yeni Müsavat"a hüquq-mühafizə orqanlarındakı mənbədən xəbər daxil olub. Qaynağımız iddia edir ki, sabiq nazirin MTN-dəki və digər strukturlardakı ən yaxın adamlarının həbsindən sonra E.Mahmudovla bağlı təkzibolunmaz sübutlar toplanıb. Bu, həm nazirlikdə sahibkarların incidilməsi, həm də gizli dinləmələrlə bağlıdır.**

Birinci məsələ ilə bağlı Respublika Prokurorluğunun xüsusi qrupu və Korrupsiyaya Qarşı Mübarizə İdarəsi araşdırma aparır. Gizli dinləmələrlə bağlı isə Xüsusi Dövlət Mühafizə İdarəsi görəvləndirilib ki, bu istintaq deməli olar ki, tam məxfi aparılır. İddiaya görə, E.Mahmudova məhz sahibkarlardan qanunsuz xərac toplaması ittihamı veriləcək. Prezidentin şimal-qərb bölgəsinə səfəri zamanı etdiyi çıxış da E.Mahmudovun cəzasız qalmayacağını və ona qarşı da rəsmi ittiham hazırlandığını bir daha sübut etmiş oldu. Adətən hakim komanda ilə bağlı bu kimi qərarlarını geniş ictimai şərhə çıxarmayan dövlət başçısı İlham Əliyev MTN-də baş verən qanunsuzluqlarla bağlı çox sərt danışıb: **"Son vaxtlar sahibkarlarla bağlı faktlar üzə çıxır. Bu, dəhşətli faktlardır. Dövlət nümayəndələri tərəfindən sahibkarlara qarşı nə qədər böyük ədalətsizliklər edilib. Onlara qarşı əsassız tələblər irəli sürülüb. Onların əmlakı bəzi hallarda əllərindən alınıb".**

Prezident idarəçiliyi dövründə ilk dəfə məmurlar haqda "reketlik" ifadəsini işlədib. "Sahibkarlardan külli miqdarda rüşvət alınıb, bəzi hallarda reketlik edilib. Ona heç rüşvət də demək olmaz. Rüşvət o vaxt verilir ki, kimsə nə isə etmək istəyir, işi asanlıqla getsin deyə rüşvət verir. Amma bəzi hallarda sadəcə olaraq sahibkarların əlindən əmlak, vəsait alınır, onlara hədə-qorxu gəlirdilər, işgəncələr verirdilər" - deyə, dövlət başçısı bildirib. Bunlar hamısı Azərbaycanın Cinayət Məcəlləsində əks olunmuş konkret maddələr və ittihamlardır. Dövlət başçısı "reket" dedikdə nəzərdə tutduğu adamın adını dilinə gətirmək istəməsə də, ünvan aydındır. Bu ünvanın prezidentin bir vaxtlar hədsiz güvəndiyi və dövlətin ən mühüm üç strukturundan birini həvalə etdiyi Eldar Mahmudov olduğu aydındır. Dövlət başçısının bu məsələ ilə bağlı dediyi son bir cümlə də diqqət çəkir. "Ədalətli məhkəmə sistemi bu faktlara adekvat qiymət verməlidir" deyə, prezident bildirib. Bu o deməkdir ki, MTN-də baş verənlərlə bağlı kimsəyə güzəşt edilməyəcək, iş məhkəmədə araşdırılacaq və günahkarlar cəzalandırılacaq.

***

MTN şefinin həbs xəbəri o, işdən çıxarılan gün yayılmışdı. Xəbərdə qeyd olunurdu ki, MTN şefi vəzifə səlahiyyətlərini aşaraq ali rəhbərliyə daxil olan şəxslərin telefon danışıqlarının dinlənilməsini həyata keçirib. Və bu, aşkarlandığına görə də həbs olunub. İnformasiyada həmçinin bildirilirdi ki, Eldar Mahmudovla bərabər MTN-in digər bir qrup generalı da tutulub. Mənbəmizin iddiasına görə, E.Mahmudovun işdən çıxarıldıqdan dərhal sonra saxlanılması xəbərinin yayılması təsadüfi deyil. Belə ki, onun barəsində siyasi qərar verildikdən sonra saxlanılması da gündəmə gəlib, hətta hakimiyyətə yaxın adamlar tərəfindən təsdiqlənərək yayılıb. Amma E.Mahmudovun həbsinin iqtidarda MTN-ə bağlı, eləcə də onunla əks qruplarda yer alanları da hərəkətə keçirəcəyi və nəticədə hakimiyyət daxilində gərginliyin artacağı nəzərə alınaraq proses tormozlanıb. İddia var ki, E.Mahmudovla konflikti olanlar onun dərhal "zərərsizləşdirilməsinə" tərəfdar olublar. Amma son nəticədə məhz E.Mahmudovun ən yaxın adamlarının nəzarətə alınmasına qərar verilib.

Sabiq nazirin hazırda konkret harada olması haqda dəqiq bilgi əldə etmək mümkün deyil, bilinən odur ki, E.Mahmudov Badamdardakı villasında yaşamır. Qaynağımızın ən sensasion məlumatı budur ki, E.Mahmudov heç bir halda baş verənlərlə bağlı "istintaqa danışmayacağını" deyib.

Yada salaq ki, E.Mahmudovun qudası, Beynəlxalq Bankın İdarə Heyətinin sabiq rəhbəri Cahangir Hacıyevin də "kredit işi"nə görə ən yaxın adamları həbsə alınsa da, özü ölkədən çıxmamaq şərti ilə istintaqa cəlb olunub. O, araşdırmanın ilkin mərhələsində məsuliyyəti üzərindən atmağa çalışsa da, oliqarxların həbsindən sonra Beynəlxalq Bank işinə görə faktiki ittiham olunan tərəfdir. Onun bütün növ azadlıqları məhdudlaşdırılıb, ciddi polis nəzarətində saxlanılır.

***

Həbslərdən söz düşmüşkən, prezidentin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədovun sabiq nazirlə yaxın əlaqələrinin olması haqda yazan media bir neçə gündür ki, israrla onun da başı üzərində "qara buludlar" olduğunu iddia edir.

Bəzi iddialara görə, Ə.Əsədovla E.Mahmudov hər gün kontaktda olublar. Onların Bakının 20-ci sahə massivində yerləşən "Nar Şərab" restoranında tez-tez görüşdükləri deyilir. Artıq qəzetlər yazır ki, Əli Əsədov "MTN işi"nə görə yaxın vaxtlarda həbs oluna bilər.

Prezidentin köməkçisi Əli Əsədov musavat.com-a bildirib ki, haqqında deyilənlərin heç bir əsası yoxdur: **"Bircə onu deyə bilərəm ki, Eldar Mahmudov dövlətin naziri olub, uzun müddət milli təhlükəsizlik naziri postunu tutub. Artıq o, sabiq nazirdir".**

Onun E.Mahmudovla yaxınlığı barədə mediada hələ nazirin mövqelərinin ən güclü olduğu vaxtdan yazılır. E.Mahmudovun təyinatında Ə.Əsədovun rolu olduğu da yeni söhbət deyil. Ə.Əsədovun dediklərində nə qədər səmimi olduğu ilə işimiz yox. Amma diqqətçəkəndir ki, Ə.Əsədov bu məsələ barədə prezidentin sərt mövqeyindən xəbərdar olsa da, E.Mahmudov haqda danışdığı bir cümlədə üç dəfə nazir ifadəsini işlədib, ittihamlarla bağlı konkret fikir bildirməyib.

***

Son aylar prezidentin həm müşavirələrdə, həm də ictimaiyyət arasında çıxışlarında komandasına ünvanlı tənqidləri artırması müşahidə olunur. Belə təəssürat yaranır ki, müxalifətin "əridilməsi" fonunda yaranmış tənqid boşluğunu qapatmaq üçün dövlət başçısı öz çıxışları ilə hakim komandanı nəzarətsiz buraxmır. Bu, çox maraqlı bir detaldır və siyasi texnologiya baxımından Azərbaycan idarəçiliyində yenilikdir. Doğrudur, prezident tənqid etdiyi kimi Azərbaycandakı vəziyyəti narahat Şərq ölkələri, hətta Qərblə müqayisə edib balansı saxlayır da. Son aylar görünən budur ki, ictimai rəyi məhz prezident verdiyi qərarlar və çıxışlarla tam yönləndirir. O, həm qərar verən, həm icrasına nəzarət edən, həm də bu yoldakı əngəlləri açıq ifadələrlə (məsələn, "reket" ifadəsi kimi) tənqid edən yeganə gücdür.

❑ **"Yeni Müsavat"**

# Prezident İlham Əliyev Tiflisdən mühüm mesajlar verdi

## Səfər iki ölkə arasında strateji tərəfdaşlığın davam edəcəyini təsdiqlədi; “Bakı və Tiflis gələcəkdə də eyni mövqedən çıxış edəcək” mesajı ən əvvəl Ermənistana ünvanlanıb; dövlət başçısı gürcü “boz kardinal”la niyə görüşmədi?

**Azərbaycan prezidenti İlham Əliyevin Gürcüstana iki günlük səfəri başa çatıb. Xəbər verildiyi kimi, ziyarətin birinci günü o, gürcü həmkarı Georgi Marqvelaşvili ilə öncə təkbətək, sonra isə nümayəndə heyətlərinin iştirakı ilə görüşlər keçirib. Görüşlərdə ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edilib, Azərbaycan prezidentinin səfərinin əlaqələrin genişləndirilməsi baxımından önəmi vurğulanıb.**



Söhbət zamanı münasibətlərin bundan sonra da inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Müzakirələr zamanı beynəlxalq, ikitərəfli və qarşılıqlı maraq doğuran bir çox məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Daha sonra siyasi, təhlükəsizlik, ticarət, iqtisadi, tranzit, mədəniyyət, təhsil, elm sahələrində əməkdaşlığın dərinləşdirilməsi barədə Birgə Bəyannamə imzalanıb. Prezidentlər mətbuata bəyanatla da çıxış ediblər.

***

Görüşlərdən sonra Azərbaycan prezidenti iki qonşu dövlət arasında uğurlu əməkdaşlığın olduğunu və bu əməkdaşlığın daha da dərinləşməsində Bakının maraqlı olduğunu söyləyib. “Biz enerji və nəqliyyat məsələlərini geniş şəkildə müzakirə etdik və bir daha iradəmizi ortaya qoyduq ki, bu layihələr və məsələlər tezliklə həllini tapsın. Xüsusilə Cənub Qaz Dəhlizi uğurla icra edilir. Bu dəhlizin, həm Gürcüstan, həm Azərbaycan üçün, həm də Avropa üçün böyük iqtisadi və siyasi mənası var. Əminəm ki, 2018-ci ildə Türkiyəyə, 2020-ci ildə Avropaya böyük həcmdə Azərbaycan qazı çatdırılacaq”, - deyə prezident qeyd edib.

**İlham Əliyev Cənub Qaz Dəhlizi layihəsinin böyük layihə olduğunu vurğulayıb:** “Azərbaycanın çox zəngin qaz ehtiyatları var. Azərbaycanın qaz ehtiyatları 2,6 trilyon kub metr səviyyəsindədir. Bu, o deməkdir ki, bundan sonra ən azı 100 il ərzində Azərbaycan həm özünü, həm qonşu ölkələri, həm də Avropa ölkələrini böyük həcmdə təbii qaz ilə təmin edə biləcək”. İlham Əliyev çıxışında Gürcüstanla Azərbaycanın birgə fəaliyyətini və gələcəkdə eyni mövqedən çıxış edəcəyini qeyd edib.

“Ölkələrimiz arasında əlaqələr xoş niyyətli və qonşuluq münasibətlərinə əsaslanır və bu münasibətlər çoxsaylı imtahanlardan keçib. Azərbaycandan Gürcüstana iqtisadiyyatına böyük dəstək var. Bunun üçün biz Azərbaycan xalqına minnətdarıq”. Bunu isə Gürcüstan prezidenti deyib.

“Biz görüşümüzdə regionda qlobalıq nöqteyi-nəzərdən çıxış etdik, sabitlik haqqında danışdıq, stabilliyin əhəmiyyətini vurğuladıq. Münaqişələrin sülh yolu ilə həllinin vacibliyini, bir-birimizin suverenliyini, ərazi bütövlüyünü dəstəklədik. Azərbaycan prezidentinin seçkilərdən sonra ölkəmizə gəlişi böyük əhəmiyyət kəsb edir” - Marqvelaşvili qeyd edib. Onun sözlərinə görə, Gürcüstan Avropa və Asiya arasında həmişə dəhliz rolunu oynayıb: “Biz nəqliyyat funksiyasına vəfalı olduğumuzu göstərmişik. Bu mənada münasibətləri dərinləşdirməyə həmişə hazırıq”.

***

**Tiflisdə Azərbaycan prezidentinin şərəfinə Gürcüstan prezidenti adından verilən rəsmi ziyafətdə çıxışı zamanı isə İlham Əliyev bildirib ki, keçirilən görüşlər, aparılan müzakirələr, həmçinin imzalanan Birgə Bəyannamə iki ölkə arasında əməkdaşlığın inkişafına və genişlənməsinə töhfə verəcək.** “Biz artıq etibarlı tərəfdaş olduğumuzu sübut etmişik, birgə səylərimizlə həyata keçirdiyimiz neft-qaz və nəqliyyat infrastrukturunun fasiləsiz, davamlı və təhlükəsiz fəaliyyətinin təmin edilməsi isə bütün tərəflər üçün mühüm əhəmiyyət kəsb edir” - deyib o.

**Dövlət başçısı habelə, regionun inkişafı üçün ən böyük təhlükə mənbəyi kimi həll olunmamış münaqişələri göstərib, Qarabağ məsələsindən danışıb:** “Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişələr ancaq ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun həll olunmalıdır”.

**Azərbaycan prezidenti Marneulidə azərbaycanlılarla da görüşüb. Görüşdə Giorgi Marqvelaşvili də iştirak edib. Çıxışında İlham Əliyev bildirib ki, Marneuliyə ilk səfərini 2004-cü ildə edib və indi bölgədə böyük iqtisadi və infrastruktur dəyişiklikləri getdiyini görüb. O, Gürcüstana iki günlük səfərinin uğurlu keçdiyini bildirib:** “Gürcüstan-Azərbaycan əlaqələri yüksək sürətlə inkişaf edir. Biz bəyannamə imzaladıq və bu sənəddə əməkdaşlığın bütün aspektləri öz əksini tapıb. Bizim əməkdaşlığımızın gözəl tarixi və gələcəyi var. Əlaqələrimiz strateji səviyyəyə qalxıb...”

***

Azərbaycan prezidentinin Gürcüstan səfəri bir neçə aspektdən diqqətdə idi. Əvvəla, o, Ermənistan prezidenti Serj Sərkisyanın Tiflis ziyarətindən bir neçə gün sonraya təsadüf edirdi. Eyni zamanda 1 noyabr seçkilərindən dərhal sonra xaricə edilən ilk səfər kimi Azərbaycanın Gürcüstana verdiyi önəmə işarə sayılırdı. Üçüncü yandan iki ölkə münasibətləri ilə bağlı son vaxtlar bəzi ciddi suallar ortaya çıxmışdı ki, onlara təcili cavablar tapılmalı idi.

Belə görünür, bu suallara təkbətək görüşdə cavablar alınıb. Görüşün detalları bəlli olmasa da, iki ölkə başçılarının açıqlamalarından və imzalanan birgə bəyannamədən, hər halda, bəzi qənaətlər hasil olur. Məsələn, Gürcüstanla Azərbaycanın gələcəkdə də eyni mövqedən çıxış edəcəyi, regiondakı konfliktlərin *(Qarabağ və s.)* həllinə vahid yanaşma sərgilənəcəyi, bir-birinin ərazi bütövlüyü və suverenliyinə dəstəyin davam edəcəyi barədə əldə olunan anlaşma, hərbi-müdafiə, energetika-tranzit qaz, kommunikasiya sahələrində əməkdaşlığın dərinləşəcəyi haqda öhdəlik, habelə İlham Əliyevin iki günlük səfəri uğurlu adlandırması çox mühüm detallardır və öncəliklə işğalçı Ermənistana münasibətdə rəsmi Tiflisin Azərbaycanın maraqlarını ciddiyə alacağının anonsudur.

Söhbət əlbəttə ki, həm də son vaxtlar aktuallıq qazanmış İran qazının Ermənistan ərazisindən Gürcüstana tranziti və Abxaziya dəmir yolunun açılması perspektivindən gedir. Lakin səfərə yekun qiymət yəqin ki, bir qədər sonra veriləcək. Çünki Gürcüstanda Azərbaycandan fərqli olaraq prezidentli üsul-idarə yox, parlamentli idarəçilik mövcuddur və baş nazirin *(hökumətin)* mövqeyi də az əhəmiyyət kəsb eləmir.

Maraqlıdır ki, İlham Əliyev Bakıda 3 saatlıq söhbət apardığı baş nazir İrakli Qaribaşvili ilə Tiflisdə bir araya gəlsə də, hökumətin “boz kardinalı” və Rusiyanın gizli adamı sayılan sabiq baş nazir, Ermənistanla ortaq layihələrin ideya müəllifi, milyarder Bidzina İvanişvili ilə görüşmədi. Halbuki Sərkisyan İvanişvili ilə Tiflisdə məxsusi təmasda olmuşdu.

❑ **Siyasət şöbəsi**

# Bakıda Allahu-Əkbər sədaları



**Azər RƏŞİDOĞLU**

## Pərakəndəlik protest elektoratını parçalayır

**Yenə də ölkədə dindar-sekulyar qarşıdurmasının imitasiyası yaradılmaqdadır. Belə ki, Müsəlman Birliyi Hərəkatının sədri, sabiq vicdan məhbusu Tale Bağırzadənin müavini Elçin Qasımovun polis tərəfində saxlanılması təşkilatın üzvlərinin etirazına səbəb olub. Maraqlıdır ki, bir neçə gün əvvəl T.Bağırzadə Yasamal Rayon Polis İdarəsində fiziki təzyiqlərə məruz qaldığını bildirmişdi. Göründüyü kimi, təşkilat özü hədəf seçilib.**

Ötən gecə polislə qarşıdurma nəticəsində inanclı fəalların bir qismi də saxlanılıb. Baş verənlərdə maraqlı məqam etirazçıların polisə açıq müqavimətə hazır olduqlarını nümayiş etdirmələri və hansısa mərhələdə hakimiyyətin yeganə fəxr predmeti olan “sabitliyin” bir anın içində göyə sovrula biləcəyi mesajını vermələri idi. Bu insanların bu dərəcədə mübariz görünmələri “Allahu-Əkbər” şüarına qarşı mübarizənin səmərəsizliyini göstərən amillərdən sayıla bilər.

Öncə vurğulayaq ki, ölkədə dini problemlər kimi son dərəcə həssas olan məsələyə hakimiyyətin qadağalar yolu ilə yanaşması məntiqə uyğun deyil. Bu məsələyə sırf insan haqları prizmasından yanaşılması problemin həlli hesab oluna bilər.

İslamfobiyanın təhlükəsi barədə bu sətirlərin müəllifi dəfələrlə yazdığından bu məqalədə baş verən aksiyanın yalnız siyasi tərəflərini təhlil etmək lazım gəlir.

Aksiyada adı hallandırılan Tale Bağırzadə dini və siyasi çevrələrdə artıq kifayət qədər yaxşı tanınır. Sabiq vicdan məhbusunun hakimiyyətə əzələ nümayiş etdirməklə davam etdirilməsi inanclı kəsimin dirəniş metodlarından biridir. Lakin vaxtından əvvəl, tam hazırlıq olmadan, əsas resurslardan məhrum olan bir halda belə aksiyaların həyata keçirilməsi nəyin bahasına olursa-olsun məqsədə çatmaqdan xəbər verir.

Onu da qeyd edək ki, cəmiyyətdə məhdudiyyətlər o dərəcədə artıb ki, artıq hamını və hər şeyi inkar etməkdən, düşmən görməkdən başqa yol qalmayıb. Bu, istər dini çevrələrdə, istərsə də siyasi çevrələrdə belədir. Belə qruplar azsaylı olduqda isə onların marjinallığı artır. Əgər problemlər mövcuddursa və meydan boşdursa, özünü təsdiq üçün şərait yaranır, lakin bunu realizə etməyə resurslar kifayət etmədiyindən, radikal aksiyalarla diqqəti cəlb etmək lazım gəlir. Polis idarəsinin srağagün gecə aksiya təşkil edənlər bununla problemi həll etmək əvəzinə, onu daha da dərinləşdirdiklərinin fərqində olmalı idilər.

Bir sual yaranır: bu məsələdə hakimiyyət maraqlı idimi? Bu suala cavab bir çox məqamlara aydınlıq gətirə bilər. İlkin təhlillər hakimiyyətin bu məsələdə də maraqlı olduğu barədə rəyə gəlməyə imkan verir.

**Birincisi,** Qərbi “islam xoxanı” ilə qorxutmaq, özünü yeganə sekulyar həyat tərzinin daşıyıcısı kimi göstərmək üçün meydanlarda yalnız “Alalhu Əkbər” şüarlarının səsləndirilməsi vacibdir. İqtidar buna qismən nail olsa da, növbəti mərhələdə daha ağır sınaqlarla üzləşə bilər. Canını asanlıqla fəda etməyə hazır olan insanlarla mübarizəyə iqtidarın hazır olmadığı aksiomadır.

**İkincisi,** iqtidar bu aksiyanın fonunda hakimiyyətdaxili qalmaqallı həbslərə münasibəti yayındırmağa çalışa bilər. Beləliklə, aksiyanın təşkilatçıları vaxt seçimində yanıldılar.

**Üçüncüsü,** baş verən aksiya protest elektoratını yenidən parçalaya bildi. Ateist-inanclılar qarşıdurması bir-birinə qarşı yönəldi. Bu da hələ son deyil. Baş verənlər fonunda məzhəblərarası savaş qığılcımları alovlanmağa başladı. Aksiya təşkilatçıları ilə digər məzhəb təmsilçiləri arasındakı uçurumun dərinliyi də üzə çıxdı. Bir sözlə, bütün problemləri yaradan hakimiyyətə qarşı mübarizə ikinci plana keçməyə başladı.

Ehtimal etmək olar ki, bu müstəvidə aksiyalar və etirazlar davam edəcək. Ümumiyyətlə, ölkədə bir gərginlik yaşanmaqdadır. Etiraz aksiyalarının genişlənə biləcəyi zaman siyasi və dini elektoratı parçalamaq üçün addımlar atmaq lazım idi. Odur ki, protest elektoratı etiraz aksiyaları zamanı addımlarını koordinə etməyə məhkumdur. İnanclı kəsimin tələbləri insan haqlarının əsas elementlərindən biri olduğu kimi, “Azad seçki” şüarı da İslam dininin əsas şüarlarındandır. Bu yolda təkfirçilik, marjinallıq, ultra-sekulyarlıq hədəfdən yayındırmağa xidmət edən ən əsas amillərdəndir. Odur ki, mübarizə müstəvisini yenidən sekulyar-inanclı və yaxud dini cameənin daxilinə transfer etmək tendensiyasına indidən son qoyulmalıdır. Bunu aksiya təşkilatçıları da anlamalıdırlar...



# Kəsirli büdcəmiz - hansı xərclər kəsildi, hansı gəlirlər artdı?

## Vüqar Bayramov: "Dövlət büdcəsinin kəsirinin daha böyük olacağı gözlənilirdi"

**2015-ci ilin 9 ayının yekunu üzrə Azərbaycan dövlət büdcəsinin kəsiri 92,1 milyon manat (ÜDM-in 0,2 faizi) təşkil edib. Halbuki ötən ilin analoji dövründə büdcə 1,38 milyard manat profisitlə icra edilmişdi. Azərbaycan hökumətinin verdiyi məlumata görə, dövlət büdcəsi ardıcıl 7 aydır kəsirlə icra olunur. Yanvarda dövlət büdcəsinin profisiti 421,6 milyon manat (ÜDM-in 11,6 faizi) təşkil edib. Ötən ilin analoji dövrü ilə müqayisədə bu, 16,9 dəfə artıb. Yanvar-fevralda büdcə 80,1 milyon manat profisitlə icra edilib ki, bu da ötən ilin eyni dövrünün göstəricisini 61,8 faiz üstələyir.**

2015-ci ilin 9 ayı ərzində Azərbaycan dövlət büdcəsinin mədaxil hissəsinə faktiki daxilolamalar 12,07 milyard manat təşkil edib ki, bu da ötən ilin analoji dövrünün göstəricisindən 14,2 faiz azdır. Dövlət büdcəsinin xərcləri 4,2 faiz azalmaqla 12,16 milyard manat təşkil edib.

Qeyd edək ki, 2015-ci il dövlət büdcəsinin gəlirləri 19,438 milyard manat, xərcləri isə 21,1 milyard manat həcmində təsdiq edilib. Büdcə proqnozları 1 barel neftin 90 dollar qiyməti əsasında formalaşdırılıb.

**Dövlət büdcəsinin 9 ayın yekunlarına dair hesabatını dəyərləndirən iqtisadçı alim Vüqar Bayramov "Yeni Müsavat"a açıqlamasında bildirib ki, əslində ilk 9 ayın büdcə kəsiri proqnozlaşdırılan kəsirdən azdır:** "Ümumdaxili məhsulun 0,2 faizi həcmində büdcə kəsiri nəzərdə tutulandan azdır. Nəzərə alsaq ki, bu il neftin dünya bazarında qiyməti 90 dollar nəzərdə tutulmuşdu və reallıqda qiyməti orta hesabla 50 dollar oldu. Deməli olar ki, neftin dünya bazarındakı qiyməti dövlət büdcəsində nəzərdə tutulduğundan hər barel üçün 40 dollar az oldu. Bu baxımdan dövlət büdcəsində daha çox kəsir gözlənilirdi, ancaq nəzərdə tutulduğundan az oldu. Büdcədə 9 ayda 92,1 milyon manat, ÜDM-in 0,2 faizi həcmində kəsirin qeydə alınması əslində müsbət haldı. Bəs necə oldu ki, neftin qiyməti büdcədə nəzərdə tutulduğundan təxminən 2 dəfə az olmasına baxmayaraq ÜDM-in cəmi 0,2 faizi həcmində kəsir oldu?

Nəzərə alsaq ki, bu, proqnozlaşdırılan kəsir deyil, bu rəqəm icra kəsiridir. Bu o deməkdir ki, 2015-ci ilin 9 ayı ərzində Azərbaycanın dövlət büdcəsinin xərcləri gəlirlərindən 92,1 milyon manat çox olub. Bunun da əsas səbəbi odur ki, Maliyyə Nazirliyi xərcləri azaltmaqla, büdcə kəsirini tənzimləyə bilib. Nəzərə alsaq ki, bəzi istiqamətlər üzrə xərclərin azalması qeydə alınıb. Bu ilin 9 ayı ərzində dövlət büdcəsinin xərcləri də 4,2 faiz azalıb və 12,6 milyard manat təşkil edir".

**Ekspertin sözlərinə görə, büdcə kəsirinin az olmasının səbəbi Maliyyə Nazirliyinin xərcləri gəlirlərə uyğunlaşdırmasıdır:** "12,07 milyon manat gəlirə uyğun olaraq, 12,16 milyard manat xərcləmə olub. Praktiki olaraq, Maliyyə Nazirliyi xərcləri gəlirlərə uyğun olaraq həyat keçirib. Yəni gəlirlər aşağı düşdükcə, xərcləmələrə də qənaət olunub. Bu o deməkdir ki, gələcəkdə gəlirlər artarsa, xərclərin də artması ehtimal olunur. Bu, 2015-ci ilin yekunları ilə bağlı da bəzi nəticələrə gəlməyə əsas verir. 2015-ci ilin yekunlarını proqnozlaşdırsaq, güman olunur ki, Maliyyə Nazirliyi büdcədə kəsirin ümumdaxili məhsulun 3 faizindən aşağı olmasına çalışacaq. Lakin Maliyyə Nazirliyi növbəti aylarda xərcləri azaltmağa çalışacaq. Bu isə o deməkdir ki, növbəti aylarda da nazirlik xərcləri gəlirlərə uyğunlaşdıracaq. Bu baxımdan gözlənilir ki, bu ilin yekununda həm gəlirlər, həm də xərclər büdcədə nəzərdə tutulduğundan az olacaq. Növbəti ilin büdcəsində 2016-cı ilin dövlət büdcəsində neftin dünya bazarındakı qiyməti 50 dollardan götürüldüyündən bu imkan verəcək ki, Maliyyə Nazirliyi xərclərdə ciddi azalmalara getməsin. Çünki büdcə proqnozlaşdırılan zaman gəlirlər və xərclər nəzərə alınıb".

**V.Bayramov onu da bildirib ki, bu il büdcədə vergidən daxilolmaların həcmi artıb və dövlət büdcəsinin neftdən asılılığı qismən azalıb:** "Büdcəyə daxilolmalara nəzər salsaq görərik ki, neftin gəlirlərinin azalmasından sonra vergidən gələn daxilolmalar artıb. Bu ilin 9 ayının nəticələrinə nəzər salsaq, daxilolmaların 42,2 faizi Vergilər Nazirliyinin, 9,3 faizi isə Gömrük Komitəsinin payına düşür. Praktik olaraq verdigən daxilolmalar dövlət büdcəsinin gəlirlərinin yarısından çoxunu təşkil edir. Bu baxımdan neftin qiymətinin aşağı düşməsinin büdcə aspektindən bir müsbət təsiri də ondan ibarət oldu ki, büdcənin neftdən asılılığını nisbətən aradan qaldırmış oldu. Növbəti aylarda və 2016-cı ildə də əsas yük Vergilər Nazirliyinin üzərinə düşür. Nəzərə alsaq ki, 2016-cı ilin büdcəsində qeyri-neft sektorunun payı 48,8 faiz nəzərdə tutulub. Bu isə o deməkdir ki, növbəti ildə də dövlət büdcəsi daha çox vergidən daxilolmalar hesabına formalaşacaq".

**Ekspert onu da qeyd etdi ki, növbəti ilin büdcəsində sosial xərcləmələrdə azalmaların olacağı nəzərdə tutulmur:** "Sosial xərclərin həcmi gələn il 0,7 faiz artacaq. 2016-cı ilin büdcəsində 5, 867 milyard manat vəsaitin məhz sosial xərcləmələrə ayrılmasını nəzərə alsaq, bu, 41,9 milyon manat çox olacaq. Demək olar ki, Azərbaycan dövlət büdcəsi sosiallaşır və praktik olaraq gəlirlər azaldığı üçün büdcə xərclərində, xüsusən investisiya və kapital qoyuluşunda xərcləmələr azalacaq. Növbəti ildə neftin qiyməti 50 dollardan götürülüb. Lakin əgər neft daha ucuz, yəni psixoloji hədd olan 40 dollara yaxınlaşarsa, bu zaman Maliyyə Nazirliyi yenidən xərclərin azaldılmasına çalışacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Hollandiya Qarabağ separatçılarına meydan verdi; Bakıdan etiraz reaksiyası

## Anti-Azərbaycan tədbiri deputat Harry van Bommel və erməni lobbi təşkilatı olan "Hay Tat" tərəfindən təşkil olunub




**Erməni diasporu noyabrın 7-də Niderlandın Azad Amsterdam Universitetində qondarma Dağlıq Qarabağ Respublikasına həsr olunmuş "Tanınmamış ölkələr, problemin həlli nədir?" mövzusunda seminar keçirəcək.**

Məsələ burasındadır ki, tədbir Azərbacanın ərazi bütövlüyünün qəsdinə don geyindirilməsinə xidmət edir. Belə ki, tədbirə Dağlıq Qarabağdakı separatçı rejimin "deputatı" Armen Sarkisyan dəvətlidir. Müzakirələrin təşkilatçılarından biri kimi Niderland Krallığının deputatı Harry van Bommel çıxış edib. Əldə etdiyimiz məlumata görə, Harry Van Bommel radikal xristiandır və hətta "İŞİD-in xristian formasıdır". Bu mənada onun erməni işğalçılarını və separatçılarını müdafiə etməsi təəccüb doğurmur. Ümumiyyətlə isə Hollandiyanın qanunverici orqanında və Hollandiya hökumətində bu kimi adamların təmsil olunması ənənəvi hala çevrilib. Hətta Hollandiyanın siyasi sistemində radikal və irqçi dini baxışlara malik olan şəxslərin də parlament və hökumətdə təmsil olunması adiləşib. Heç də təsadüfi deyil ki, İslam dünyası haqqında təhqiramiz fikirlər, eləcə də antisemitizm xarakterli çağırışlar Hollandiya parlamentində vaxtaşırı geniş müzakirə olunmaqdadır".

Məsələ rəsmi Bakının da diqqətindədir.

**XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanın Niderlanddakı səfirliyi tərəfindən belə bir təxribatçı tədbirin keçirilməsi ilə əlaqədar Hollandiyanın XİN-ə müraciət edilib:** "Bu tədbir Niderland parlamentində təmsil olunan, qatı anti-Azərbaycan və radikal dini baxışları ilə seçilən deputat Harry van Bommel və erməni lobbi təşkilatı olan "Hay Tat" tərəfindən təşkil olunub. Harry Van Bommel qeyri-qanuni şəkildə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə də səfər edib və onun bu fəaliyyəti müəyyən olunduqdan sonra bu şəxsin adının XİN tərəfindən tərtib olunan "arzuolunmaz şəxslər" siyahısına daxil edilməsi nəzərdən keçirilir". **Tədbirin mahiyyətinə gəldikdə, H.Hacıyev belə dedi:** "Bu, şənbə günü, yəni qeyri-iş günü şəraitində, universitetdə icarəyə götürülmüş kiçik otaqların birində keçiriləcək və iştirakçı siyahısı da əsasən Hollandiyada məskunlaşmış erməni lobbi dairələrindən ibarət olacaq".

**Azərbaycanın vətəndaş cəmiyyətindən də Hollandiyaya etiraz edilib. Diaspor Jurnalistləri Birliyinin təşəbbüsü ilə bir neçə QHT Hollandiyanın Azad Amsterdam Universitetinə etiraz bəyanatı göndərib. Bəyanatda qondarma Dağlıq Qarabağ Respublikası ilə bağlı belə bir tədbirin keçirilməsinin yolverilməz olduğu bildirilir:** "Qondarma rejim dünyanın heç bir ölkəsi, hətta Ermənistan tərəfindən tanınmayıb. Dağlıq Qarabağ Azərbaycan dövlətinin tərkib hissəsidir və hazırda Ermənistanın işğalı altındadır".

**Bəyanatda universitet rəhbərliyinə BMT Baş Assambleyasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələr xatırladılıb:** "Azad Amsterdam Universiteti belə bir tədbirə dəstək verməklə Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən bu təcavüzə göz yummuş sayılır. Hesab edirik ki, Azad Amsterdam Universiteti müstəqilliyimizə qarşı olan bu tədbirlə Hollandiya ilə Azərbaycan arasındakı münasibətlərə də kölgə sala bilər. Bu tədbirə yer verməklə Azad Amsterdam Universiteti bütün beynəlxalq qanunların ziddinə getmiş olacaq".

**Sənəddə Azərbaycan QHT-ləri Azad Amsterdam Universitetini haqqın, ədalətin yanında olmağa səsləyir, erməni lobbisinin belə bir tədbiri keçirməsinə icazə verməməyə çağırırlar. Daha bir bəyanat seminarda iştirak edəcək Niderland Krallığının deputatı Harry van Bommelə və onun təmsil etdiyi Sosialistlər Partiyasına göndərilib. Bəyanatda Harry van Bommelin belə bir tədbirdə iştirak etməsinin Azərbaycanın müstəqilliyinə qarşı atılmış təxribatçı addım kimi dəyərləndirilir:** "Siz "Tanınmamış ölkələr, problemin həlli nədir?" mövzusunda seminara qatılmaqla Ermənistan tərəfindən Azərbaycanın ərazi bütövlüyünə qarşı edilən bu təcavüzə önəm vermiş olursuz. Sizi bu tədbirə qatılmamağa səsləyirik. İnanırıq ki, haqqın, ədalətin yanında olacaqsız və erməni lobbisinin təxribatçı tədbirində iştirak etməyəksiz".

Hər iki bəyanata ermənilərin azərbaycanlılara qarşı törətdikləri terror əməlləri ilə bağlı rəsmi sənəd və linklər əlavə olunub.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

**Müsavat Partiyasında narazılıqlar yenidən baş qaldıra bilər. Partiya rəhbərliyi nizamnaməni pozaraq, 1 noyabr seçkilərinə qatılan İltizam Əkbərli və Tural Abbaslını qurumdan xaric edəcəkləri barədə sərt açıqlamalar verir. Bu isə narazılıq dalğasının yenidən baş qaldıracağı anlamına gəlir.**

# Müsavatda narazılıqlar dalğasının yeni mərhələsi başlayır...

## Rəhbərlik boykot qərarına qarşı çıxaraq seçkilərdə iştirak edən namizədlərlə bağlı qərar verəcək; Elman Fəttah: "Onlara qarşı da partiya daxilində ciddi etirazlar var"

Müsavatı bir il öncəki qurultayından sonra aylarla davam edən qarşıdurmalardan da təhlükəli tale gözlədiyini düşünənlər az deyil. Amma bütün bunlara rəğmən partiya rəhbərliyi verəcəyi qərarlarda israrlı görünür.

**Müsavatdan xaric olunması ehtimalları daha yüksək görünən partiyanın sabiq Divan üzvü Tural Abbaslı qurultaydan sonra hadisələrin ürəkaçan olmadığını qeyd etdi:** "Hazırda Müsavatla bağlı nə desən gözləmək olar. Partiyanın zəifləməsindən tutmuş, siyasi arenadan ciddi bir fiqur kimi silinməsinə qədər. Hesab etmirəm ki, bu baş verərsə, hansısa bir atılmış yanlış addımın nəticəsində olacaq. Son bir ildəki yanlış idarəetmənin nəticəsi ola bilər. Mütəmadi olaraq, yanlışlıqlar davam edir. Bunlar davam etdikcə, fəsadları üzə çıxacaq. Bu şəxslər nəinki partiya naminə geri çəkilmək istəyirlər, hətta yanlışlıqlarının üzərinə gedirlər. Nəticədə Müsavat süquta doğru gedir. Bunun qarşısını almağın bir yolu var, qarşıdurmalar dayandırılmalı, rəhbərlik qrup maraqlarından geri çəkilməli, rəhbərliyə daha səriştəli şəxslər gətirilməlidir. Partiyadan çıxarılan yaxud istefa verən şəxslər yenidən cəlb olunmalıdır. İtirilmiş nüfuz geri qaytarılmalıdır. Gün-gündən səhv qərarların sayının artdığını müşahidə edirik. Səriştəsiz addımlar atılır. Dəyişikliklər olmadıqca, bu məsələlər aktuallığını qoruyacaq. Məsləhətim odur ki, indiki rəhbərlik bir daha düşünsün, bu gedişlə tarixə adlarının necə düşəcəyini götür-qoy etsinlər".

**Müsavat başqanının müavini Elman Fəttah bildirdi ki, partiya tələblərini pozan şəxslər barədə daxildə ciddi etirazlar var:** "Rəhbərlik hələ də bu məsələləri gündəmə gətirmək niyyətində deyil. Bütün fəaliyyətlərini Müsavata qarşı yönəldənlər, qərarlara qarşı çıxanlar, şər-böhtan atanlar çox deyil, bir və ya iki nəfərdir. Onlara qarşı da ictimaiyyət və partiya daxilində ciddi etirazlar var. Tural Abbaslını misal çəkə bilərəm. Bütün fəaliyyəti həm Müsavat Partiyasına qarşıdır, həm də demokratik düşərgənin prizmasında deyil. Müsavatın seçkilərdən çəkilməklə bağlı qərarı var. İltizam Əkbərli bu məsələdə fərqli mövqe tutub. İştirakını davam etdirmək iradəsi göstərib. Bu məsələlərin hər biri müzakirə olunacaq. Düşünürəm ki, bütün bunlar gündəm yox, texniki məsələdir. İltizam bəy partiyanın qəbul edəcəyi qərarlara hörmətlə yanaşacağını bildirib. Bu, İltizam bəyin partiyaya olan sayğısıdır. Bu məsələlər təcili surətdə müzakirə olunmayacaq. Partiya lazım bildiyi vaxt bu barədə qərar verəcək. Üzvü olduğu partiya ilə məsləhətləşmədən qərar verən, Müsavat namizəd kimi irəli sürməsə də, özünü Müsavatın üzvü kimi göstərərək, seçkilərə qatılan şəxslər barədə müzakirələr aparılacaq. Qərarın necə olacağı müzakirələrin sonunda məlum olacaq. Həmin şəxslərin qərarlarının partiya nizamnaməsini necə pozduğu aydınlaşdırılacaq. Hər şey səsvermə ilə qəbul edilən qərardan asılı olacaq".

❑ Cavanşir ABBASLI

# Müxalifət seçkinin nəticələrinə aksiyasız etiraz edir...



**Gülağa Aslanlı:**
"Aksiyalar məsələsi Divanın iclasında müzakirə oluna bilər"



**Mirmahmud Mirəlioğlu:**
"Müxalifətin diqqət cəlb etməsinə ehtiyac qalmır"



**Ənvər Ağazadə:**
"Əlavə addımlar atmağa ehtiyac qalmayacaq"

**1 noyabr parlament seçkilərindən bir həftə ötsə də, müxalifətin nəticələrlə bağlı etirazları eşidilməkdədir. Demokratik düşərgə bütün ölkə ərazisində total şəkildə seçkilərin saxtalaşdırıldığını iddia edir. Seçki prosesində iştirak edən qurumların əksəriyyəti etiraz olaraq bəyanat veriblər.**

Amma seçkilərdən sonrakı narazılıqlarla bağlı bir məsələ daha çox gündəmə gəlib. Ölkə müxalifətinin etirazları özündə ehtiva edən aksiyalar keçirməməsi suallar doğurur. Müxalifət yalnız bəyanatlar verməklə işini bitmiş hesab edir. Dünya ölkələrində belə bir praktika mövcuddur. İnsanlar etirazlarını küçələrdə büruzə verirlər. Biz də isə tam əksidir. Çoxları hesab edir ki, müxalifətin mitinq keçirmək gücü yoxdur. Yəni insanlar onların keçirdikləri aksiyalara qatılmırlar.

**Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı seçkilərin nəticələri ilə bağlı hüquqi vasitələrdən istifadə etdiklərini bildirdi:** "Seçkinin nəticələrini tanımamaq, seçkilərin saxtalaşdırıldığını sübut etmək üçün hüquqi vasitələrdən istifadə edirik. Noyabrın 6-da Mərkəzi Seçki Komissiyasında namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş şəxslərin 16 şikayətinə baxıldı. Hazırda biz Apelyasiya Məhkəməsinə şikayət hazırlayırıq. Azərbaycanda müstəqil məhkəmə sistemi olmadığı üçün Apelyasiya Məhkəməsindən də düzgün, obyektiv qərar olmayacağını qabaqcadan bilirik. Amma başqa instansiyalara müraciət etmək üçün bu addım atılmalıdır. Hazırda partiyanın əsas işi bu istiqamətdədir. Qalan məsələlər, xüsusilə aksiyalar məsələsi Divanın iclasında müzakirə oluna bilər".

**"Azadlıq 2015" seçki blokuna daxil olan partiyalardan KXCP sədri Mirmahmud Mirəlioğlu hesab edir ki, 1 noyabr seçkiləri dünya və Azərbaycanda qeyri-adi hadisə kimi qarşılandı:** "Həm dünya çapında, həm Azərbaycanda, həm də qonşu ölkələrdə 1 noyabr seçkiləri o qədər qeyri-adi hadisədir ki, abırlarına sığınıb qiymət verməkdən yan keçirlər. Hətta hakimiyyət bu seçkiləri saxtalaşdırmaq marağında belə olmadı. "Karusel"ə o qədər də ehtiyac duymadı. Azərbaycan hakimiyyətinin özünün əhəmiyyət vermədiyi bir məsələyə müxalifətin diqqət cəlb etməsinə ehtiyac qalmır".

Seçkilərdə ən aktiv şəkildə iştirak edən qurumlardan bəlkə də birincisi Ümid Partiyası oldu. Seçkiöncəsi aktivliyi ilə daim gündəmdə olan qurum hazırda nəticələrə etiraz etməklə hər kəsin diqqətindədir. Xüsusilə partiya sədri İqbal Ağazadənin namizəd olduğu 35 saylı Xətai 3-cü seçki dairəsi ətrafında başlayan qalmaqal səngimək bilmir. MSK ASDP sədri Araz Əlizadəni qalib elan etsə də, İ.Ağazadə əldə etdiyi protokollarla qalib gəldiyini bildirir.

**Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə şikayətlərinə baxılmadığını söylədi:** "Hüquqi addımlar atırıq. Şikayətlərimizin heç birinə baxılmayıb. MSK və DSK-ya müraciətlərimiz olub. MSK şikayətimizi dairəyə qaytarıb, dairə baxmalıdır. MSK şikayətimizlə bağlı iclas keçirib, lakin qərar qəbul etməyib. Hələ ki hüquqi prosedurları həyata keçirəcəyik. Əminəm ki, obyektiv araşdırma aparılsa, nəticələr xeyrimizədir. Ümid edirik ki, əlavə addımlar atmağa ehtiyac qalmayacaq. Hüquq çərçivəsində mübarizəmiz davam edəcək. Əlimizdəki faktlar obyektiv qərar qəbul etməyə imkan verir".

❑ Cavanşir ABBASLI

# Siyasi partiyalar seçkisonrası planlarını açıqladı

## Müxalifət diqqəti təkcə daxili məsələlərə yönəltməyəcək...

**Ölkə gündəmində müxtəlif istiqamətlər üzrə dartışılan parlament seçkiləri mövzusu arxada qaldı. Seçkilərin nəticələri ilə bağlı siyasi partiyalar fərqli fikirlər bildirdi. Proses tam yekunlaşmasa da, əvvəlki aktivlik daha sezilmir. Bəs görəsən, ölkə müxalifətinin 2018-ci ilə qədər olan planları nədən ibarətdir?**

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı** növbəti seçkilərə hazırlaşmaq barədə düşündüklərini dedi: "2018-ci ilin prezident seçkilərindən əvvəl ölkədə növbədənkənar parlament seçkilərinin keçirilməsi gözlənilir. Seçkilərin saxtalaşdırılmasına beynəlxalq aləmin də verdiyi qiymətlər bunu göstərir. Bundan başqa, Müsavat Partiyasının hər ilin əvvəlində qəbul etdiyi təqvim planı var. Bu təqvim planında olan işlərə uyğun fəaliyyətimizi quracağıq".

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, hazırkı məqamda daxili siyasətə daha çox zaman ayırmaq doğru deyil: "Dünyada artıq çox ciddi proseslər gedir. Azərbaycanı işğal etmək istiqamətində təzyiqlər edilir. ABŞ Azərbaycanı Rusiyanın işğalından qorumaq üçün konkret addımlar atmağa hazırlaşır. Regionda bizim üçün çox təhlükəli olan Ukrayna və Yaxın Şərq hadisələri də səngimək bilmir. Belə bir zamanda siyasi partiyaların daxili siyasətlə məşğul olmasını yanlış hesab edirəm. Cəmiyyəti maarifləndirmək, qarşıdan gələn təhlükələri xalqa çatdırmaq lazımdır. Bu istiqamət üzrə də işlərimizi aparacağıq".

**KXCP sədrinin müavini Xəzər Teyyublu da növbəti illərdə partiyaların hansı işlər görəcəyini açıqlayıb:** "Hesab edirəm ki, bu gün siyasi partiyaların işi seçkidən-seçkiyə aktivlik göstərmək deyil. Partiyaların işi həm də ölkədə demokratiyanın qorunması, inkişaf etdirilməsi, insan hüquqlarının müdafiəsini qurmaq və sairə bu kimi faktorlarla bağlıdır. Eyni zamanda hazırda regionda siyasi vəziyyət gərgindir. Hər bir siyasi partiyanın, onun üzvlərinin borcudur ki, Azərbaycan dövlətçiliyinin qorunması istiqamətində də öz fəaliyyətlərini tənzimləyə bilsinlər. Hər halda, KXCP-nin də görəcəyi işlər var. Partiya qarşıdakı illərdə təşkilatın möhkəmlənməsi, digər partiyaların da bir yerdə olması üçün əməli iş görmək istiqamətində fəaliyyətini aparacaq. Bu baxımdan görüləcək çox işlər var. Təbii ki, seçki də bu işlərdən biridir. Ancaq 2018-ci ilə hələ bir müddət var. Siyasətdə isə müddətlə iş görülmür. Hər günün öz hökmü var. KXCP hər zaman Azərbaycan dövlətçiliyini üstün tutub və bu istiqamət üzrə də fəaliyyətimizi davam etdirəcəyik".

**AXP sədri Pənah Hüseyn də planlarını açıqladı:** "Partiyanın proqram nizamnaməsi üzrə fəaliyyət planı var və buna uyğun ümumi siyasi fəaliyyətimizi davam etdirəcəyik. Konkret olaraq hələ parlament seçkilərini başa çatmış hesab etmək olmaz. Çünki hazırda DSK və MəSK-ya şikayət hazırlamaqla məşğuluq. Daha doğrusu, şikayətlər hazırlanıb, yoxlama prosesi gedir. Yəqin ki, əsas işimiz bu məsələlərlə bağlı olacaq. Daha sonra isə "Azadlıq-2015" seçki blokuna daxil olan partiyalarla birlikdə yaranmış vəziyyəti dəyərləndirib, konkret siyasi kursu müəyyən edəcəyik. Sözügedən blok seçki üçün yaranmışdı. Ancaq bundan sonrakı fəaliyyətimiz müzakirələrimizdən sonra bəlli olacaq".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

# Sərdar Cəlaloğlunun Məhərrəmliklə bağlı fikirləri aranı qatdı

**İlahiyyatçı Bəhruz Camal:** "Onun dedikləri heç bir əsasa, məntiqə və qaynağa söykənmir..."


Sərdar Cəlaloğlu

**Bir neçə gün öncə ADP sədri Sərdar Cəlaloğlunun müsahibəsində Məhərrəm ayı haqqında səsləndirdiyi bəzi fikirlər cəmiyyətdə, o sırada dini camiyədə birmənalı qarşılanmayıb.**

Qeyd edək ki, Cəlaloğlu Məhərrəmliyin xristianlıqdan götürülmüş bir adət olduğunu bildirib: "Xristianlar İncili təhrif ediblər. Bəzi xristianlar İsa peyğəmbərin çarmıxa çəkilməsini dəhşətli ağlaşma və özlərinə əzab verməklə qeyd edirlər. Hətta bəziləri özlərini İsa peyğəmbər kimi çarmıxa çəkirlər. Bizdə də şiələr başlarını yararaq qan çıxarırlar. Halbuki imam Hüseynin başını kəsiblər. Onda kim ki, özünü ona oxşatmaq istəyir, başını kəsməlidir. Xristianlıq İslamdan əvvəl gəldiyi üçün biz deyə bilmərik ki, onlar öz adətlərini Məhərrəmlikdən götürüblər. Deməli, Məhərrəmlik xristianlığın bəzi qollarından götürülüb. Ümumiyyətlə, şiəlik xristianlığın, sünnilik isə yəhudiliyin İslam dininə tətbiqidir".

Məsələyə münasibət bildirən **ilahiyyatçı Bəhruz Camal** Sərdar Cəlaloğlunun fikirlərinin heç bir məntiqə və əsasa söykənmədiyini dedi: "Bu məmləkətdə bəzi insanlar gündəmə gəlmək, yaxud da düşünülmüş şəkildə dindarları qıcıqlandırmaq üçün bu cür pafoslu çıxışlar edirlər. Bu, Sərdar Cəlaloğlunun birinci belə çıxışı deyil. Bəzi deputatlar və ya başqaları da bənzər qeyri-normal çıxışlarla gündəmə çıxmışdılar. Əslində bu cür şüarlar, təfəkkürlər dini qaynaqlardan xəbərsizliyin və dini məlumatlarının nə qədər aşağı olduğundan xəbər verir. Müəyyən mənada hər bir ənənədə və ayində özündən əvvəlki dinlərdən, ənənə və ayinlərdən əxz olunan bəzi həqiqətlər var. Bu da təbiidir. Məsələn, bütün səmavi dinlər tövhit prinsipi üzərində qurulub. Əgər bu gün Məsihiyyətdə, Yəhudiyyətdə olan tövhit prinsipini İslam dini də önə çəkirsə, o zaman gərək biz deyək ki, İslam dinində belə bir şey yoxdur, bu, yəhudiyyətdən məsihiyyətdən əxz edilib?! Bu yanlış fikirdir".

**İlahiyyatçı bildirdi ki, Məhərrəmlik ayı İslamdan öncə də qan tökməyin haram buyurulduğu bir aydır:** "Məhərrəmlik ayına gəlincə isə onun konkret hansı komponentinin məsihiyyətdən keçdiyi iddiasını ortaya qoyan şəxs konkret komponentlə əsaslandırmalıdır. Məsələn, Məhərrəmlikdəki filan ayinlərin əsası, kökü xristianlıqdadır və bunun İslamla heç bir əlaqəsi yoxdur. Ola bilsin Sərdar Cəlaloğlunun qulağına hansısa fikirlər dəyib. Amma təəssüflər olsun ki, o fikirlər yanlışdır və araşdırmasız danışdığının nəticəsidir ki, bu gün əks-rezonans yaradıb, dindarları qıcıqlandırıb. Məhərrəm ayı İslamdan öncə, cahil ərəblərin dövründə belə qan tökməyin haram buyrulduğu bir aydır. Cahil ərəblər belə bu ayda müharibəni dayandırırdılar. Amma İslam xəlifəsi iddiasında olan Yezid ibn Müaviyənin təfəkkürü cahil ərəblərdən belə aşağı idi deyə, o ayda Həzrəti Hüseynin qanını tökdü. İndi konkret olaraq Sərdar müəllim hansı komponenti deyir bilmirəm. Əgər Məhərrəm ayında bəzi ayinlərin keçirilməsini nəzərdə tutub ümumilikdə Məhərrəm ayının əzadarlığına kölgə salmaq istəyirsə, çox yanlış metoddur. Çünki bunu Sərdar Cəlaloğlundan öncə bizim din alimlər bu gün də deyir ki, bəzi ayinlər, təfəkkürlər sonradan əzadarlığa sığdırılıb ki, əzadarlığın, Məhərrəmliyin, İmam Hüseynin aşurasının mahiyyəti dəyişdirilsin. Bunu bu gün biz də deyirik. Amma bu o demək deyil ki, hansısa xurafi ayinə, xurafi ənənəyə görə ümumilikdə əzadarlığın və bir ənənənin özünün kökdən batil olduğu iddiasını ortaya çəkək. Əlbəttə, bunun heç bir dəlili yoxdur. Sərdar Cəlaloğluna cavablar da verilib. Amma biz hələ gözləyirik ki, Sərdar müəllim tutarlı arqumentə, dəlilə, sübuta əsaslanan yazı və ya fikir təqdim etsin. Ondan sonra biz qələmimizi əlimizə alıb onun fikirlərinə mövqe bildirə bilərik. Çünki mən Sərdar Cəlaloğlunun bu fikirlərini qeyri-ciddi hesab elədiyim üçün heç reaksiya da vermirəm. Onun dedikləri heç bir əsasa, məntiqə və qaynağa söykənmir".

❑ **Günel MANAFLI**

# Qarabağı necə qaytaraq...

**Qarabağ danışıqlarının dalana dirənməsini həmsədrlərin cid-d-cəhdlərinə, bölgəyə davamlı səfərlərinə, çağırışlarına baxmayaraq, prezidentlər səviyyəsində ənənəvi görüşlərdən daha birinin keçirilməsinə nail ola bilməmələri də təsdiqləyir.**


**Fərrux Məmmədov:** "Dağlıq Qarabağın Azərbaycana qaytarılmasının yeganə yolu təbii ki, savaşdır"


**Nurəddin Xoca:** "Varlı, oliqarx, məmur balaları da xalqın övladları kimi ön cəbhədə çiyin-çiyinə dayanmalıdır"

Atəşkəs zonasında gərginliyin davam etməsi isə münaqişənin həllini vacib sayan beynəlxalq qurumları da narahat edir. Lakin bu da var ki, işğalçı Ermənistan iddialarından geri çəkilmək istəmir və proseslər torpaqların azadlığını istisna edir. Üstəlik, işğalçı ölkə Rusiyanın himayəsinə sığınaraq daha da azğınlaşır. Bugünlərdə Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi qətnaməyə - işğalçı qoşunların ərazilərdən çıxarılmasından bəhs edən tələbdən söhbət gedir - erməni tərəfinin saygısız münasibəti də göz önündədir. Serj Sərkisyanın hətta BMT tribunasından işğala bəraət qazandırması, Dağlıq Qarabağı "Ermənsitanın tərkib hissəsi" sayması danışıqların fayda verəcəyinə ümidi öldürdü. Bir sıra ekspertlər isə hesab edir ki, hazırda Suriya, Əfqanıstan məsələləri beynəlxalq aləmi daha çox məşğul etdiyi üçün Azərbaycan ərazilərinin azad olunması ilə bağlı prosesə dinamika verilməsi məsələsi kənarda qalıb. Paralel olaraq Azərbaycanın hərb yolu ilə ərazilərini azad etmək istəyinə qarşı çağırışlar səslənir. Elə isə çıxış yolu nədir, torpaqlarımızı necə qaytara bilərik?

**Keçmiş döyüşçü, "Boz Qurd" batalyonunun rəhbəri Nurəddin Xoca "Yeni Müsavat"a dedi ki, hər bir konflikti həll etməyin iki yolu var: danışıqlar və savaş:** "Ancaq 22 il danışıq olmur. Siz də təsdiq edirsiniz ki, dünya gücləri savaşa da icazə vermir. Deməli, münaqişənin həllində dalana dirənmişik. Lakin əslində bu konfliktin bir həll yolu var, o da savaşdır. Danışıq yolu ilə heç bir işğal olunmuş torpaq azad edilməyib. Xüsusən də erməni kimi həyasız bir işğalçı ilə ancaq və ancaq danışmağın bir yolu var: güc, savaş yolu. Mən onda da, indi də ancaq bir yol görürəm. Dişlərimizi sıxıb savaşmalıyıq və bu savaşda hər şeyi gözə alaraq qələbə çalmalıyıq".

**N.Xoca Azərbaycanın imkanlarını yüksək dəyərləndirir:** "Hər halda, 1992-ci ildə Azərbaycanın heç bir imkanı olmayan bir zamanda Azərbaycan vuruşurdu və özü də müvəffəqiyyətlə vuruşurdu. İndi hər bir imkanımızın olduğu, hərbi maşın parkımızın yeniləndiyi bir vaxtda Azərbaycan savaşa tam hazırdır. Silahının qıt olan vaxtı vuruşan millət indi ən axırıncı model silahlarla silahlanıb. Müdafiə Nazirliyi bir az xalqla işləməlidir, orduda neqativ halları yığışdırmalı, ordudan rüşvət və korrupsiya yox edilməlidir. Orduda kastalara bölünmə halları olmamalıdır. Varlı, oliqarx, məmur balaları da xalqın övladları kimi ön cəbhədə çiyin-çiyinə dayanmalıdır. Sadəcə, millətə bir az ruh vermək lazımdır. Ordu ilə xalq bir olmalıdır".

**Keçmiş döyüşçü "sülhməramlı" adı altında Rusiya əsgərinin işğal zonasına yeridilməsini təhlükəli sayır:** "Sülhməramlıların Qarabağa gəlməsi Qarabağın birdəfəlik itirilməsi deməkdir. Sülhməramlılar Qarabağa girsələr, biz o torpaqları bir daha ancaq yuxumuzda görəcəyik".

**NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov da "Yeni Müsavat"a bildirdi ki, Qarabağın sülh yolu ilə qaytarılması məsələsi real görünmür:** "Bunu istər Avropa, istərsə də Qərb çox yaxşı bilir. Dağlıq Qarabağ ətrafında gedən danışıqlar, ATƏT-in Minsk Qrupu həmsədrlərinin səfərləri bütövlükdə problem ətrafında siyasi vizion yaratmaqdan başqa bir anlam kəsb etmir. Rusiyanın Cənubi Qafqazda mövcudluğu və bu mövcudluq üçün istənilən addımı atması Qarabağ münaqişəsinin həlli prosesini uzadır. Dağlıq Qarabağın Azərbaycana qaytarılmasının yeganə yolu təbii ki, savaşdır". **Lakin F.Məmmədov hesab edir ki, burada çox önəmli bir məqam var:** "Bu məqam ondan ibarətdir ki, biz müharibəyə hazırıqmı? Müharibə etmək üçün güclü iqtisadiyyata və beynəlxalq tərəfdaşlara ehtiyac var. Əgər bu iki faktor bizim əlimizdə olarsa, o zaman prosesin həlli bizim lehimizə mümkündür. Əks təqdirdə, ən azı daha on il bu proses danışıqlar çərçivəsində davam edəcək". **Ekspert deyir ki, savaş məsələsi gündəmə gələcəksə, ölkəmiz hərbi tərəfdaşlarını unutmamalıdır:** "Qarabağ məsələsində Azərbaycanın yeganə tərəfdaşları Türkiyə və Pakistandır. Biri nüvə dövləti, digəri isə regionda söz sahibi olan bir gücdür. Biz bu iki dövlətin gücündən istifadə etsək, hərbi və siyasi olaraq o zaman müəyyən nəticələr əldə etmək mümkündür. Bu iki dövlət bizə güclü tərəfdaş toplamaqda yardımçı ola bilər. Türkiyənin ərəb coğrafiyasına təsir etmək imkanları var, Pakistanın isə hərbi gücü. Unutmayaq ki, Pakistan Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlətdir. Hazırda biz hərbi və siyasi tərəfdaş axtarmaq missiyasını həyata keçirməliyik. Bütün danışıqlara son qoyulmalıdır. ATƏT-in Misk Qrupuna sərf edilən vaxtı digər tərəfdaşlara yönəltmək lazımdır. Dağlıq Qarabağ məsələsində haqlı tərəf bizik və bunu sübut edən yüzlərlə dəlil var. BMT-nin məlum 4 qətnaməsi bizə kifayət qədər əsas verir ki, torpaqların geri qaytarılması üçün real addımlar ataq".

**F.Məmmədov deyir ki, hərbi əməliyyatlara başlamazdan öncə bir sıra həlli vacib məsələlərlə məşğul olmaq gərəkdir:** "Hazırkı şəraitdə iqtisadiyyatın bərpa edilməsi, müharibə üçün güclü kapitalın toplanması və beynəlxalq birliyin torpaqların geri qaytarılması üçün hərəkətə keçməsinə nail olunması əsas məsələdir. Azərbaycan tərəfi bu addımları atdığı halda masada əlidolu şəkildə oturmuş olacaq. Bu gün əyləşdiyimiz masada diktə edən tərəf biz deyilik, biz diktə edilləni dinləyən tərəfik. Baxmayaraq ki, haqlı olan bizik. Yaranmış situasiyadan, sadəcə, Rusiya səmərəli istifadə edir. İstər Qarabağ məsələsində, istərsə də Cənubi Qafqazda gedən proseslərdə. Reallıq odur ki, hələlik Qərb və Avropa Rusiyaya istər siyasi cəhətdən, istərsə də iqtisadi cəhətdən uduzur. Buna səbəb Qərbin və Avropanın ləng siyasi proseslər yürütməsidir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

**Özbəkistan prezidentinin kiçik qızı Lola Kərimova-Tillyayeva özünün instagram səhifəsində prezident postuna iddia etmədiyinə dair bəyanat yerləşdirib. Virtualaz.org saytı Orta Asiya KİV-lərinə istinadən xəbər verir ki, Lola bəyanatında bildirir: "Həyatımda mənim qarşıma kifayət qədər böyük vəzifələr qoyulub. Mən bu vəzifələri aydın görürəm, ancaq onların arasında hakimiyyətə nail olmaq yoxdur. Mən həyatımı dəyişdirmək - dövlət orqanlarında işləmək, dövlət xadimi olmaq istəmirəm".**

# Özbəkistan prezidentinin qızının ilginc ailə dramı...

## İki bacı - birinin öldüsündən xəbər yoxdu, o biri prezidentliyə naz edir

Lola Kərimovanın prezident olacağına dair məlumatı bu yaxınlarda mühacirətdəki özbək politoloqu Usman Haqnazarov yaymışdı. Onun məlumatına görə, prezident İslam Kərimov yaxın ətrafını toplayaraq özündən sonra hakimiyyətə Lolanın rəhbərlik edəcəyini, onun hakimiyyətdəki bütün qrupları qane edən namizəd olduğunu bildirib.

Lola Kərimova isə bu məlumata indi reaksiya verir.

77 yaşlı İslam Kərimovun səhhətinin yaxşı olmadığı barədə bundan əvvəl də şayiələr yayılırdı. Özbəkistanın dövlət başçısı bu seçkilərə ailəsində baş verən ciddi qalmaqallar fonunda gedir. Onun böyük qızı, bir vaxtlar hakimiyyətinin varisi hesab olunan Gülnarə Kərimova atasının hakimiyyətinə qarşı çıxışlarından, hakim ailə daxilində baş verənləri açıqladıqdan sonra bir ildən çoxdur ki, Daşkənddə ev dustağı edilib.

İyul ayında Gülnarə Kərimova barədə ziddiyyətli xəbərlər yayılmağa başladı. Məlum oldu ki, fevral ayından etibarən ev dustağı kimi saxlanılan G.Kərimova, nəhayət, Özbəkistanı tərk edib və iyulun 8-də Baltik ölkələrinin birində ad gününü qeyd edib. Bu məlumatı Özbəkistanın hakimiyyət strukturlarında mötəbər mənbələri olan "Uzmetronom" saytı yayıb. Xəbərdə bildirilir ki, iyulun 8-də 42 yaşı tamam olan Gülnarə Kərimova ad gününü Baltik ölkələrinin birində "ən yaxın adamlarının çevrəsində" qeyd edib. Ondan qısa müddət öncə isə G.Kərimovanın oğlu, Özbəkistan prezidentinin adını daşıyan İslam Kərimov ilk dəfə Londonda üzə çıxıb və Rusiyanın REN-TV kanalına müsahibə verərək anasının üzləşdiyi vəziyyət barədə danışıb.

21 yaşlı İslam deyib ki, anası ilə sonuncu dəfə yanvar ayında görüşə bilib, ad günündə onu babasının evinə buraxmayıblar və anası ilə kiçik bacısı hazırda Daşkənddə ev dustağıdır. İslam deyib ki, babasına anası barədə yanlış informasiyaların çatdırıldığını düşünür. O ümid edirdi ki, babası, nəhayət, işə qarışıb vəziyyəti düzəldəcək. Lakin bu qalmaqallı müsahibənin efirə getməsindən bir neçə gün sonra Gülnarə Kərimovanın yoxa çıxdığı haqda xəbər yayıldı. Orta Asiya mənbələri xəbər verirdi ki, Gülnarə ilə bütün əlaqə kəsilib, yaxınları onunla telefon əlaqəsi yarada bilmir və prezidentin qızının hətta öldürüldüyü də istisna deyil.

İndiki mərhələdə isə G.Kərimova ilə bağlı ziddiyyətli iki xəbər var. Bunlardan biri onun Özbəkistanı tərk edərək Baltik ölkələrinin birində ad günün qeyd etməsi barədədirsə, ikinci informasiyaya görə, prezidentin qızı hələ də ev dustağıdır, üstəlik, vəziyyəti əvvəlkindən daha pisdir."The Russian Times" nəşrinin yazdığına görə, G.Kərimovanın gündəliyində iyulun 3-də, yəni ad günündən beş gün əvvəl yazdığı qeydlər və bir neçə fotoşəkil redaksiyaya daxil olub. Fotoşəkillərin birində G.Kərimovanın dustaq saxlanıldığı evin mühafizəçilər tərəfindən necə qorunduğu əks olunur. Söhbət Özbəkistan prezidentinin mühafizə xidmətinin hərbçilərindən gedir. Növbəti iki şəkildə isə mühafizəçilərin G.Kərimovanın barmaqlarını sındırması əks olunub. Şəkillərin birində Gülnarənin barmaqlarını iki mühafizəçi sıxır, prezidentin qızı o biri əli ilə onları vurmağa çalışır. Fotoların nə vaxt çəkildiyi göstərilmir.


Lola Kərimova

Xatırladaq ki, bundan əvvəl G.Kərimova atasının mühafizəçiləri tərəfindən döyüldüyünü bildirmişdi. Nəşr Gülnarə Kərimovanın iyulun 3-də yazdığı qeydin mətnini də üslubuna və orfoqrafik səhvlərə toxunmadan dərc edib. Mətn Özbəkistan prezidentinin qızının rus dilində pis yazdığını və çoxlu üslub səhvlərinə yol verdiyini göstərir.

**Gülnarə yazır:** "Bu gün 3 iyul, 2014-cü ildir. Qızım İmanın - atamın böyük və guya ən sevimli nəvəsinin 16 yaşının tamam olmasından 13 gün keçdi. Hansı ki, indi onu unudublar və mənim - prezidentin böyük və nə vaxtsa sevimli olmuş qızının ad gününə - iyulun 8-nə 5 gün qalır. Bu gün isə bacım Lolanın 36 yaşıdır və onun, anamın və bu "bardak"ı yaradan qrupun, o cümlədən təəccüblü də olsa cəmi iki gün əvvələ qədər iki həftə həbsdə saxlanılan, ancaq həbsdən çıxıb yenidən Milli Təhlükəsizlik Xidmətindəki vəzifələrinə geri dönən Hayot və Cövdət Şərifxocayevlər kimilərinin tərəfindən məhz bu gün seçilib. Zarafatdır?! Ola bilər! Atam zarafat həvəskarıdır. Yaxud indi başqaları onunla zarafat edirlər.

Deyilənə görə, Lolanın və onun əri, "tualetçi" kimi tanınan birinin evində, restoranlarında, barlarında, ofislərində MTX tərəfindən axtarışlar aparılıb. Görünür, bu da atamın "zarafatıdır". Bir halda ki gömrükdən tutmuş tranzitə, dövlət müəssisələrinə qədər hər şeyə onlar nəzarət edir, bu axtarışlar nəyə lazım idi?" G.Kərimova daha sonra ona qarşı edilən təzyiqlərdən, anasının və bacısının əməllərindən bəhs edib. "Məni bu sətirləri yazmağa 8 iyuldakı ad günümə olan təhdidlər məcbur etdi" deyə, o bildirir.

Fakt isə budur ki, qonşu ölkələrdən birində, üstəlik, birinci şəxsin ailəsində bu cür dramatik hadisələr yaşanır. Ailənin bir qızının öldüsündən-qaldısından xəbər yoxdur. Digər qızı isə prezidentlik postuna "göz vurmur". Üstəlik, siyasi ambisiyalar ailə münasibətlərini də tamam kökündən zədələyib, atanı qıza, bacını bacıya düşmən edib. Məlum olur ki, hətta atası ilə münasibətləri normal olan qızı da bacısının dediyinə görə, zaman-zaman təzyiqlərə, yoxlamalara məruz qalır. Ona da prezidentlik postu üçün rəsmi razılıq verilməyib.

❑ SEVİNC

# Kəlbəcər sakini ikinci dəfə didərgin düşdü

## İcra nümayəndəsi: "Ona məcburi köçkünlər üçün nəzərdə tutulan qəsəbədə ev verilib"

**Kəlbəcər rayonundan məcburi köçkün olan və hazırda Gəncə şəhəri Hacıkənd qəsəbəsində məskunlaşan Yunis Musa oğlu Abbasov Gəncə şəhəri üzrə icra nümayəndəliyindən şikayətçidir.**

Şikayətçi bildirir ki, Gəncə şəhərinin icra nümayəndəsi Hümbət Hüseynov, bələdiyyə sədri Kərim Hüseynov, Kəpəz Rayon Polis İdarəsinin əməkdaşı, kapitan Rəhim İbrahimov onun ailəsi ilə birlikdə yaşadığı evi söküblər. Şikayətçi problemi ilə bağlı müxtəlif instansiyalara müraciət etsə də, heç bir kömək almadığını söyləyir. Buna görə də o, "Yeni Müsavat" qəzetinə müraciət edərək məsələni ictimailəşdirmək qərarına gəlib.

**Şikayətçi Yunis Abbasov bildirib:** "Bu ilin 10 may tarixində yuxarıda adları sadalanan şəxslər, əllərində heç bir sənəd olmadan zorla evimizə girərək, əvvəlcə döşəməni, pəncərəni və nəhayət, yaşadığım mənzili bütünlüklə sökdülər. Bu barədə dəfələrlə müxtəlif orqanlara müraciət etmişəm. Şikayət etdiyim orqanlardan Gəncə Şəhər İcra Hakimiyyətinə bildirildi ki, məsələni araşdırsınlar, lakin bu baş verməyib. Söküntüdən öncə qəsəbənin icra nümayəndəsi məni çağıraraq bildirdi ki, icra başçısı sənədsiz evləri sökdürür. Mən də bildirdim ki, 2009-cu ildə cənab prezidentə evlə bağlı müraciət etmişik və bizə icra hakimiyyəti tərəfindən razılıq verilib ki, bu ərazidə ev tikək. Lakin onlar buna əhəmiyyət vermədilər. Onu da qeyd edim ki, 2009-cu ildə bankdan kredit götürüb bu evi tikdim. Hazırda da kredit ödəyirəm. Bu ilin mart ayında isə icra nümayəndələri tərəfindən sənədləşmə üçün məndən 15 min manat pul istədilər. Ona da gücüm çatmadı. Eyni zamanda evimiz sökülən zaman 3850 manat məbləğində qızılım, pulum itib. Bu barədə şəhər polis idarəsinə şikayət etsək də hələ də bir xəbər yoxdur. Evimizi sökən zaman polis kapitanı Rəhim İbrahimov söküntüyə narazılıq edən ahıl yaşlı atamı yumruqla vurdu. Sonra onu sürüyüb çölə atdı. Elə bu hadisədən bir neçə gün sonra atam da rəhmətə getdi. Rəhim



**Yunis Abbasov: "İcra nümayəndələri sənədləşmə üçün məndən 15 min manat pul istədi, vermədim, mənzilimi sökdülər"**

İbrahimovun bu hərəkəti ilə bağlı dəfələrlə lazımi orqanlara şikayət etmişəm.

İndi isə üç uşaq və yoldaşımla birlikdə həmin həyətdəki kiçik damda qalırıq. Mən oranı zəbt etməmişəm. İcra nümayəndəsi yer ayırıb, razılıq verib, biz də ev tikmişik. Bunu nə üçün sökdülər?"

**Məsələ ilə bağlı şikayətçinin adını hallandırdığı Gəncə Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Hümbət Hüseynovla əlaqə saxladıq. O bildirdi ki, şikayətçinin iddiaları əsassızdır:** "Ona məcburi köçkünlər üçün nəzərdə tutulan qəsəbədə ev verilib. Deyilən yerdə isə onun evi olmayıb. Ümumiyyətlə, Hacıkənd qəsəbəsində turizmin inkişafı ilə bağlı köhnə tikililərin hamısı sökülüb. Onun yaşadığı ev də həmin tikililərdən idi. Bu səbəbdən də söküldü. Çünki söylədiyim kimi, məcburi köçkünlər üçün evlər tikildi və onlar ora köçürüldülər".

❑ Əli RAİS, musavat.com

# Cəlilabadda ağır qəza

## Ölən və yaralananlar Fərhad Əliyevin yaxın qohumlarıdır



**Cəlilabadda ölümlə nəticələnən dəhşətli yol-nəqliyyat hadisəsi baş verib. APA TV-nin cənub bürosunun məlumatına görə, hadisə dünən səhər saatlarında Ələt-Astara magistralının 141-ci kilometrliyində, yolun Cəlilabad şəhəri ərazisindən keçən hissəsində qeydə alınıb.**

Cəlilabad rayonunun Alar kənd sakini, 1978-ci il təvəllüdlü Zaur Alxan oğlu Əliyevin idarə etdiyi "Toyota Prado" markalı, 60 NG 786 dövlət nömrə nişanlı minik avtomobili Bakı istiqamətində hərəkətdə olarkən qəfildən idarəetməni itirərək yolun kənarındakı ağaca çırpılıb. Hadisə yerinə cəlb olunmuş Fövqəladə Hallar Nazirliyinin xilasediciləri deformasiyaya uğramış avtomobildəki şəxsləri çıxarıblar.

Güclü zərbə nəticəsində sürücünün yanında olan qardaşı, 1975-ci il təvəllüdlü Ziyad Əliyev aldığı xəsarətlərdən hadisə yerində dünyasını dəyişib. Sürücü Zaur Əliyev isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə Cəlilabad Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Burada ona müvafiq tibbi yardım göstərilib, lakin vəziyyəti ağırlaşdığından təcili tibbi yardım maşınında Bakı şəhərindəki xəstəxanalardan birinə yola salınıb.

Faktla bağlı Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsində araşdırma aparılır.

Qeyd edək ki, qəzada ölən və yaralanan şəxslər sabiq iqtisadi inkişaf naziri Fərhad Əliyevin əmisi nəvələridir.


### Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Səhiyyə Nazirliyi 118 saxta diplom aşkarladı

**"2015-ci ildə Səhiyyə Nazirliyi tərəfindən sənədlərin araşdırılması prosesi zamanı 118 saxta diplom aşkar olunub. Aşkarlanan diplomların əksəriyyəti orta təhsilə aiddir". Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən APA-nın sorğusuna cavab olaraq bildirilib.**

Məlumatda deyilir ki, ümumilikdə araşdırma nəticəsində 118 saxta diplom aşkar olunaraq toplanmış materiallara hüquqi qiymət verilməsi üçün Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərilib: "Bu istiqamətdə həmin qurumla müvafiq tədbirlər davam etdirilir".

Qeyd olunub ki, 2011-ci ildən başlayan tibb işçilərinin sertifikasiyası ilə əlaqədar Səhiyyə Nazirliyi tərəfindən tibb peşəli şəxslərin sənədləri yoxlanaraq bir sıra saxta və ya hüquqi əsası olmayan təhsil müəssisələri tərəfindən verilmiş diplomlar aşkar olunub: "Səhiyyə Nazirliyinə daxil olan müraciətlərin baxılması zamanı sənədlərin yoxlanması üçün aidiyyəti tibb müəssisələrinə sorğu göndərilir. Sorğuların cavabı sənədin əsassız olduğunu təsdiqləyirsə, faktla bağlı bütün sənədlər Hüquq və Daxili Nəzarət şöbəsinə və oradan Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərilir.

Eyni zamanda vurğulamaq lazımdır ki, 2004-cü il yanvarın 13-də "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il martın 3-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanıb. Qanunun tətbiqi və saxta sənədlərin istifadəsinə görə vətəndaşların məsuliyyətə cəlb olunması saxta diplomların sayını tədricən azaldacaq".


### Elan

**Qəbələ rayonu Vəndam kəndində parket fabriki bütün avadanlıqları ilə birlikdə, çox ucuz qiymətə (7500 AZN) təcili satılır.**
**Tel: 070 335 90 15**

**Binəqədi-Xırdalan şossesi yaşayış massivi, Respublika Dövlət Yol Polisinin yaxınlığında əlverişli qiymətə 4 sot torpaq sahəsi satılır. 2,5 metr hündürlükdə daş hasarın içərisində, əla yerdə. İşıq, qaz, su 15 m. məsafədə yerləşir. Yenilənmiş kanalizasiya xətti, meyvə ağacları var. Yol asfalt-beton.**
**Tel: (050) 614-40-24**

### Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




## Şirvanda kriminal "razborka": "Krıtı Elvin" və dostu öldürüldü

**Şirvan şəhərində silahlı insident baş verib. APA TV-nin Mil-Muğan bürosunun məlumatına görə, hadisə gecə saat 23.00 radələrində Şirvan şəhəri, H.Əliyev prospektində yerləşən kafedə kriminal aləmin üzvlərinin mübahisəsi zəminində baş verib.**

"Makarov" tipli silahdan açılan atəş nəticəsində Şirvan sakinləri - əvvəllər məhkum olunmuş, 1990-cı il təvəllüdlü Zaur Vəfadar oğlu Sarıbalayev və 1983-cü il təvəllüdlü, kriminal aləmdə "Krıtı Elvin" kimi tanınan Elvin Zamanəli oğlu Nəziyev qətlə yetirilib.

Birinci şəxs hadisə yerində, sonuncu Şirvan şəhər xəstəxanasına aparılarkən yolda dünyasını dəyişib. Hadisənin səbəbləri və təfərrüatları araşdırılır.

Olay yerində Şirvan prokurorluğunun əməliyyat-istintaq qrupu, o cümlədən ekspert-kriminalistlər istintaq tədbirləri həyata keçirib. Hər iki şəxsin meyiti Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Şirvan şəhər şöbəsinə təhvil verilib. İnsidentdə neçə silahdan istifadə olunduğu meyitlərin müayinəsindən və ballistik ekspertizadan sonra aydınlaşacaq.

Baş verən qətl hadisəsi ilə əlaqədar Şirvan sakini, 1985-ci il təvəllüdlü Tural Baloğlan oğlu Salmanov və daha bir nəfər şübhəli şəxs qismində saxlanılıb. Daha bir neçə nəfərin istintaqa cəlb olunması gözlənilir.

Qeyd edək ki, Zaur Vəfadar oğlu Sarıbalayev Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin 2009-cu il 3 iyun tarixli hökmü ilə məhkum edilib. 26 may 2014-cü il prezidentin imzaladığı əfv fərmanı ilə azadlığa buraxılıb.

Daxili İşlər Nazirliyi (DİN) Şirvanda baş vermiş silahlı qarşıdurmaya dair məlumat yayıb.

## Universitet dosenti dəm qazından boğuldu

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) dosenti Mirzə Əhmədov dəm qazından zəhərlənib. Report xəbər verir ki, hadisə 76 yaşlı alimin evində baş verib. Onun həyatını xilas etmək mümkün olmayıb. Qeyd edək ki, Mirzə Əhmədov UNEC-in İnformatika kafedrasının dosenti olub.**

## Sumqayıtda ər arvadını öldürüb

**Sumqayıt şəhərində qətl hadisəsi qeydə alınıb. Bu barədə "Report"a Sumqayıt Şəhər Prokurorluğundan məlumat verilib. Belə ki, 1988-ci il təvəllüdlü Xəqani Hüseynov 27 yaşlı həyat yoldaşı Ramilə Hüseynovanı öldürüb.**

Faktla bağlı Cinayət Məcəlləsinin 120-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

## Yağışlar başlayır

**Həftəsonu Azərbaycan ərazisində müşahidə olunacaq hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən azvision.az - a bildirilib ki, noyabrın 7-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və axşam yarımadanın bəzi yerlərində çiskinli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 7-10, gündüz 11-14, Bakıda gecə 8-10, gündüz 11-13 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə yağış yağacağı gözlənilir. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-9, gündüz 10-15, dağlarda gecə 0-5 dərəcə, gündüz 7-12 dərəcə isti olacaq.

Tibbi meteoroloji məlumata əsasən, noyabrın 7-9-da Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddütü meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, rütubətli hava şəraitinin üstünlüyü bəzi insanlarda narahatlıq hissi yarada bilər.


### Elan

**Buzovna dairəsində, Daxili Qoşunların yanında 7 sot torpaq satılır. Sotu 7500 AZN.**
**Əlaqə telefonu: (050) 343-59-72**

YENİ MÜSAVAT
N 248 (6276) 7 noyabr 2015

# Hansı təyyarə ilə uçsaq, sağ qalarıq...

## Dünyanın ən etibarlı təyyarələri və reysləri; son qəzadan sonra ləğv olunan marşrutlar və daha nələr...

**Statistikaya görə, hər səkkiz milyon uçuşdan biri qəza ilə nəticələnir. Yəni təyyarə qəzası əslində çox da yüksək ehtimal sayılmır. Amma son günlər baş verən təyyarə qəzalarından sonra bu mövzu aktuallaşdı: ən etibarlı təyyarələr, reyslər və hava yolu şirkətləri hansılardır? Ya da ən təhlükəli olanların siyahısında nələr var?**

ABŞ-ın ən köklü və nüfuzlu təşkilatı olan Beynəlxalq Təhlükəsizlik Qurumunun (National Transportation Safety Board-NTSB) araşdırmasına görə, təyyarə ilə səyahət, avtomobillə səyahətə nisbətən 6, qatarla səyahətə nisbətən 2 dəfə daha etibarlıdır. Hər gün Yer kürəsi üzrə təxminən 100 min uçuş həyata keçirilir və bu sektora milyardlarla dollar xərclənir. Qəzalar yol açdığı acı itkilərlə paralel olaraq, bu sektora olan etibarı da sarsıdır.

### Hansı reyslər dayandırılıb?

Fransa Sivil Havaçılıq Şirkəti (DGAC) dünya miqyasında müharibə və insident olan bölgələrdə uçuşa məhdudiyyətlər gətirdiyini açıqlayıb. Türkiyənin "Sabah" qəzetinin yazdığına görə, uçuş qadağası olan bölgələr Fransız hava yolu şirkətlərinin sıx-sıx uçduğu Ukrayna, Liviya, Suriya, İraq, Yəmən, Sudan, Güney Sudan, Somali, İranın cənub şərqi, Əfqanıstan və Pakistandan ibarət 11 ölkəni əhatə edir. «Lufthansa» və «Emirates» şirkətlərinin də Misir və Orta Şərq ərazindən istifadə etməməsi, Anadolunun, Avropadan Asiyaya açılan ana koridor funksiyasını daşıması nəticəsini də gətirdi. Təyyarə şirkətlərinin tətbiq etdiyi uçuş məhdudlaşdırmaları havaçılıq tarixində fərqli bir dönəmə girdiyinin siqnallarını verir.

AzadlıqRadiosu isə yazıb ki, Rusiyaya məxsus sərnişin təyyarəsinin Sinay yarımadası üzərində ziddiyyətli şəkildə qəzaya uğramasının ardınca Qərbin bir sıra hava şirkətləri Misirin kurort şəhəri Şarm əl-Şeyxə reyslərini dayandırıblar.

Böyük Britaniyanın ardınca Fransa, Belçika və Hollandiya da öz vətəndaşlarına Misirin Şarm əl-Şeyx kurortuna səfərlərdən çəkinməyi tövsiyə ediblər. Almaniyanın hava şirkətləri bu şəhərə bütün uçuşlarını dayandırıb.

Britaniya Şarm əl-Şeyxdə ilişib qalmış vətəndaşlarının Misirdən çıxarılmasını cümə günündək başa çatdıracaq.

Rusiyanın "Airbus A321" təyyarəsinin qəzaya uğramasının səbəbləri tam araşdırılmayıb. İŞİD-ə bağlı qruplaşmalar təyyarənin məhv edilməsi üçün məsuliyyəti öz üzərinə götürüblər.

Britaniya və ABŞ liderləri də 224 sərnişinin həyatına son qoymuş qəzanın bomba partlayışı nəticəsində baş verdiyi barədə bəyanatlar veriblər.

Rusiya Qərb liderlərini təyyarə qəzasının rəsmi təhqiqatı başa çatanadək hər hansı bəyanatlardan çəkinməyə çağırıb.

Bununla belə, Britaniyanın baş naziri Devid Kameron deyib ki, vətəndaşların təhlükəsizliyi naminə Şarm əl-Şeyx hava limanında təhlükəsizlik təftişi başa çatanadək bu şəhərə bütün uçuşlar dayandırılıb.



Belçika hökuməti də təyyarə qəzası təhqiqatının nəticələri bəlli olanadək öz vətəndaşlarını Şarm əl-Şeyxə səfər etməkdən çəkindirən bəyanat yayıb.

Almaniyanın Lufhansa şirkəti bəyan edib ki, ona tabe "Edelweiss" və "Eurowings" şirkətlərinin Şarm əl-Şeyxə uçuşlarını dayandırıb.

Rusiya sərnişin təyyarələrinin Şarm əl-Şeyxə uçuşları davam edir.

### Bunlar ən etibarlı aviaşirkətlərdir...

Almaniyanın JACDEC (Jet Airliner Crash Data Evaluation Centre) adlı təyyarə qəzalarını araşdıran bürosu Hamburqda ənənəvi "Dünyanın ən etibarlı aviaşirkətlərinin reytinqi"ni təqdim edib. Banker.az saytı bu reytinqin 2013-cü ilin nəticələrinə əsasən təşkil edildiyini xəbər verib və siyahını təqdim edib.

"Air New Zealand" - Yeni Zellandiyanın milli aviaşirkətidir və əsası 1940-cı ildə qurulub. Aviaşirkət ölkədaxili 27, əcnəbi ölkələrə isə 26 istiqamətdə uçuşlar həyata keçirir. "Air New Zealand" dünyada yeganə aviaşirkətdir ki, onunla Yer kürəsinin ətrafında dövr etmək mümkündür. Bu aviaşirkət 2012-2013-cü illərdə Piter Cekson "Hobbit" adlı reklam kampaniyasında iştirak etmişdi.

"Cathay Pacific Airways" - şirkəti 1946-cı ildə yaradılıb və Honq Konqun beynəlxalq hava limanında yerləşir. Aviaşirkət mütəmadi olaraq bütün dünya üzrə 114 istiqamətə sərnişin və yük daşınmasını həyata keçirir. "Cathay Pacific" şirkəti Skytrax 5 ulduzlu reytinqinə sahib dünyanın 6 aviaşirkətindən biridir.

**"Finnair"** - 1924-cü ildə yaradılıb. Bu əsas bazası ilə Vantaa şəhərində yerləşən Finlandiyanın milli aviaşirkətidir. "Finnair" dünyanın 50 dövlətinə reyslər təşkil edir və 1963-cü ildən etibarən Avropanın ən təhlükəsiz hava daşıyıcısı hesab olunur.

**"Emirates"** - Dubayda yerləşən dünyanın ən nəhəng aviaşirkətlərindən biri olan "Emirates"in əsası 1985-ci ildə qoyulub. "Emirates Airlines" şirkətinin marşrut xətti bütün dünya üzrə 130-dan çox şəhər və 60-dan çox ölkəni əhatə edir. Şirkətin aviaparkı dünyada ən gənclərdən biridir və 200 "Airbus" və "Boeing" təyyarələrindən ibarətdir. Hər həftə Dubaydan mindən çox təyyarə 6 qitəyə uçur.

**"EVA Air"** - əsası 1991-ci ildə qoyulub və Tayvanın böyüklüyünə görə ikinci aviaşirkətidir. Şirkət Asiya, Avropa və Şimali Amerikaya beynəlxalq reyslər təşkil edir. Burada hər il 6 milyon sərnişin daşınır. Şirkətin özünün "Evergreen Club" loyallıq proqramı mövcuddur.

**"British Airways"** - əsası 1974-cü ildə qoyulub və Böyük Britaniyanın nəhəng aviaşirkətlərindən biridir. Şirkətin baza hava limanları "Heathrow" və "Gatwick"dir. Bununla yanaşı, "British Airways Oneworld" aviasiya ittifaqının üzvüdür. Şirkətin təyyarələri bütün dünya üzrə 222 reys həyata keçirir. Şirkət həmçinin Avropada ən böyük və gənc təyyarə parkına sahibdir.

"TAP Portugal" - əsası 1946-cı ildə qoyulub və Portuqaliyanın milli aviaşirkətidir. Şirkət Lissabonun Portela hava limanında yerləşir. Şirkət 14 mart 2005-ci ildən etibarən "Star Alliance"a daxildir. TAP Braziliyaya reyslər təşkil edən nəhəng operatordur. Hazırda TAP şəbəkəsinə 30 ölkədə 65 hava limanı daxildir. Şirkət gündəlik olaraq isə 1600 reys həyata keçirir.

**"Etihad Airways"** - əsası 2003-cü ildə qoyulub və BƏƏ-nin milli aviaşirkətidir. Şirkətin baş-qərargahı Abu-Dabidə yerləşir. "Etihad" ərəb dilindən tərcümədə "ittifaq" mənasını verir. Şirkət Yaxın Şərq, Avropa, Asiya, Avstraliya və Şimali Amerikaya 84 istiqamətdə yük və sərnişin daşınmasını həyata keçirir.

**"Air Canada"** - əsası 1937-ci ildə qoyulub və "Star Alliance"ın yaradıcı üzvlərindən biridir. Şirkət Monreal şəhərində yerləşir. "Air Canada" 5 qitə üzrə 175 istiqamətlərdə uçuşlar həyata keçirir. 23 iyul 1983-cü ildə Monrealdan uçuş həyata keçirən aviaşirkətin "Boeing 767-200" təyyarəsi şirkətin tarixinə "Gimli planeri" adı ilə daxil olub. Belə ki, uçuş zamanı təyyarənin yanacağı bitir. Bu zaman təyyarənin komandiri Robert Pirson idarəetmə panellərinin köməkliyi ilə təyyarəni öz idarəsi altına ala bilir və onu 60 sərnişin və 8 heyət üzvü ilə "Gimli" aviabazasına endirə bilir.

**"Qantas Airways"** - əsası 1922-ci ildə qoyulub və Avstraliyanın ən böyük aviaşirkətidir. Şirkət dünyanın ən qədim aviaşirkətləri siyahısında ikinci yerdədir. Həmçinin "Uçan kenquru" (The Flying Kangaroo) ləqəbinə sahibdir. Şirkətin baş qərargahı Sidneydə yerləşir və 144 istiqamətdə uçuşlar həyata keçirir. "Qantas"ın təyyarə heyətinə 135 hava gəmisi daxildir.

### 16 saat 55 dəqiqəlik uçuş - qəzalar uzunmüddətli uçuşlarda olur?

Maraqlidir ki, çox vaxt qəzalar uzunmüddətli uçuşlarda daha çox özünü göstərir. Dünyanın 10 ən uzaq məsafəli "non-stop" uçuşunun ümumi uzunluğu 133 095,967488 kilometr, yaxud 82 702 mildir. Həmin reyslər 16-17 saat müddətində reallaşır. Məlumata görə, onluqda sonuncu yeri "Cathay Pacific" Hava Yolları Şirkətinə məxsus Nyu-York - Honq Konq reysi tutur. "Boeing 777-300ER" vasitəsilə reallaşdırılan 8 072 mil məsafəlik uçuş 16 saat çəkir.

"Emirates" tərəfindən 15 saat 50 dəqiqə müddətində bir-birindən 8 103 mil məsafədə yerləşən Dubay və San-Fransisko şəhərləri arasında reallaşdırılan uçuş 9-cudur. Bu uçuşlar "Airbus A380-800" vasitəsilə reallaşır.

"Boeing 777-300ER" vasitəsilə reallaşdırılan Dallas - Honq Konq reysi bu siyahıda səkkizincidir. "American Airlines"in təyyarəsi 8 123 mil məsafəni 16 saat 20 dəqiqə müddətinə qət edir.

Dünyanın 7-ci ən uzaqməsafəli reysi "Etihad Airways" tərəfindən 8 158 mil məsafədə reallaşdırlan Əbu-Dabi - San-Fransisko reysidir. Bu məsafəni "Boeing 777-300ER" təyyarələri 16 saat 15 dəqiqəyə başa vurur.

"Emirates" tərəfindən Dubaydan Hyustona 16 saat 20 dəqiqə müddətində reallaşdırılan reyslər bu sıralamada 6-cı yerdədir. Uçış zamanı "Airbus A380-800" 8 168 mil qət edir.

Səudiyyə Ərəbistanın Ciddə şəhəri ilə ABŞ-ın Los-Anceles şəhərlərini birləşdirən 8 332 mil məsafəni "Boeing 777-300ER" təyyarələri 16 saat 55 dəqiqəyə qət edir. "Saudia" Hava Yolları Şirkəti tərəfindən reallaşdırılan bu reyslər reytinqdə 5-cidir.

Ümumi uzunluğu 8 339 mil olan Dubay - Los-Anceles reysi bu sıralamada 4-cüdür. "Airbus A380-800" təyyarələrinin 16 saat 35 dəqiqəyə qət etdiyi bu uçuşlar "Emirates" tərəfindən həyata keçirilir.

Siyahının ilk üçlüyünə ümumi uzunluğu 8 390 mil olan Əbu-Dabi - Los-Anceles reysi daxildir. "Etihad Airways" tərəfindən "Boeing 777-200LR" vasitəsilə reallaşdırılan uçuşun müddəti 16 saat 25 dəqiqədir.

Dünyanın ən uzun saat davam edən aviareyslər siyahısında ikinci olan Yohannesburq-Atlanta reysinin məsafəsi 8 439 mil, uçuş müddəti isə 16 saat 40 dəqiqədir. Bu uçuşlar "Boeing 777-200LR" vasitəsilə "Delta Air Lines" tərəfindən reallaşdırılır.

Onluğa liderliyi isə Sidney-Dallas aviareysi edir ki, onun da uçuş məsafəsi 8 578 mildir. "Qantas" Hava Yolları Şirkətinin "Airbus A380-800" təyyarələri vasitəsilə reallaşdırdığı bu uçuşun müddəti isə 16 saat 55 dəqiqədir.

Xatırladaq ki, dünyada saatlarla sürən birbaşa uçuşlardan birini AZAL təşkil edir. Bakı - Nyu-York reysi ilə "Airbus Industrie A340" təyyarələri ilə reallaşdırılan uçuşların müddəti 12 saat 55 dəqiqə çəkir.

### Təyyarədəki ən etibarlı oturacaq hansıdır?

Təyyarədə ən etibarı oturacaq hansıdır? Bu mövzuda müzakirələr gedən zaman ən çox eşidilən cavab heç şübhəsiz ki, "təhlükəsizlik kəmərini taxdığınız hər bir oturacaq" olacaq. Belə ki, təhlükəsizlik kəməri havada yaşana biləcək təhlükələrdən qorunmanıza ciddi təsir edir. Oturacağın etibarlılığı isə təyyarənin tipinə görə dəyişir. Airlineratings.com saytı qəza statistikalarını təhlil edərək, insan itkisinin çox olduğu qəza yerlərini üzə çıxarıb. Nəticədə qəza sonrası həyatda qalanların oturduğu oturacaqların yerləşdiyi bölgə incələnib. Qanad arxasında və təyyarənin ən arxa hissəsində oturanların həyatda qalma faizləri daha yüksəkdir. ABŞ-ın "Channel 4" kanalında yayımlanan "The Crash" (Qəza) adlı sənədli filmin prodüserləri bunu daha yaxşı təhlil etmək üçün bir araşdırma aparıblar. Məlum olub ki, qabaq oturacaqlardakı sərnişinlərin yaşama şansı yoxdur. Amma təyyarənin yerdə qalan 78 faizinin sağ olaraq qurtulma ehtimalı var. Araşdırmaya görə, oturacaq nömrəsi yüksəldikcə yaşama şansı da yüksəlir. Yəni təyyarənin arxa oturacaqlarında oturmaq daha etibarlıdır. "Popular Mechanics" adlı avtomobil və texnologiya jurnalı 1971-ci ildən bəri baş verən qəzaları bir-bir araşdırıb. Araşdırmanın nəticələrinə görə, arxa tərəfdə oturan sərnişinlərin 69 faizi, qanad üstündə oturan sərnişinlərin 56 faizi və qabaq tərəfdə oturan sərnişinlərin 49 faizinin sağ qalmaq ehtimalı var. Bütün hallarda təyyarənin arxa tərəfinin daha etibarlı olduğu üzə çıxır.

**Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 248 (6276) 7 noyabr 2015*




## Bu ədviyyatın insana inanılmaz faydaları var

Darçın hələ qədim zamanlardan xalq təbabətində də geniş istifadə olunub. Bu ədviyyat darçın ağacının qurudulmuş budaqlarından hazırlanır. Orqanizm üçün saysız faydaları olan darçın sözün əsl mənasında bir çox xəstəliklərə qənim kəsilən ədviyyatdır.

Onun ən faydalı xüsusiyyətlərindən biri qanda şəkəri tənzimləməsidir. Darçın qanda xolesterenin səviyyəsini aşağı salaraq ateroskleroz, miokard infarkt, iflic ehtimalını azaldır. Damarları genişləndirməklə beyinin fəaliyyətini yaxşılaşdırır. Bağırsaq iltihablarına qarşı mübarizə aparır, orqanizmin toksinlərdən təmizlənməsinə kömək edir. Həmçinin qaraciyər və öd kisəsinin fəaliyyətini normallaşdırır. Qəbzlikdən əziyyət çəkənlər üçün də darçın xeyirlidir. Mədə ağrılarını aradan qaldırır.

Bədənin müqavimətini artıraraq orqanizmin immun sistemini gücləndirir. Bundan əlavə, qadınlarda menstrual ağrı zamanı müsbət təsir göstərir. Ağızdan pis qoxunu götürür. Qan xərçəngi xəstəliklərinin profilaktikası üçün darçın ən yaxşı vasitələrdən biridir.



## Sosial media yuxudan dəyərli imiş

Amerikadakı "Common Sense Media" araşdırma mərkəzində aparılan tədqiqatlar zamanı məlum olub ki, gənclərin sosial mediada keçirdikləri zaman yuxu üçün ayırdıqları zamandan daha çoxdur. Alimlərin sözlərinə görə, 13-18 yaşlı gənclər günlərinin 9 saatını sosial mediada keçirirlər. 10-12 yaşlı uşaqların 51%-i televizora baxarkən, 60%-i isə mesaj yazarkən dərs oxuyur. Musiqi dinləyərkən dərs oxuyan uşaqlar isə 71%-dir.

# Top yığaraq 15 milyon qazandı

Yaşadığı ərazidəki gölün kənarında 34 qolf klubu olan amerikalı işsiz gölə düşən topları çıxarmaqla zənginləşib. Belə ki, ABŞ-ın Florida ştatında yaşayan Glenn Berger 14 il əvvəl işsiz qaldığı zaman ağlına fərqli bir fikir gəlib. O, evinin yaxınlığındakı gölə düşən qolf toplarını çıxarıb satmağa qərar verib. Qolf klublarındakı dərslər zamanı öyrənən şəxslərin səhvən gölə atdıqları xeyli sayda top onun üçün çörək pulu qazanmaq yoluna çevrilib. Bu günə qədər bu yolla 15 milyon dollar qazandığını iddia edən Berger "USA Today" qəzetinə müsahibəsində hər il 1,3-1,7 milyon top topladığını deyir. Qolf klubları da Bergerdən təmizlənmiş halda aldıqları toplara daha az pul xərcləmiş olurlar.



Berger onun üçün ən böyük problemin göldəki timsahlar olduğunu deyir.

# Uşaqlar haqqında maraqlı faktlar

Uşaqlar həyatımızın ayrılmaz hissəsidir. Amma onlar haqqında hər şeyi bilirikmi? Bəzi maraqlı faktlara nəzər salaq:

- uşaqlar orta hesabla günə 400 dəfə gülürlər, böyüklər isə gün ərzində 15 dəfə gülürlər;
- 1-3 aylıq körpələr ağlayarkən gözlərindən yaş gəlmir;
- 6-7 aylıq körpə eyni zamanda həm nəfəs ala, həm də udquna bilir, böyüklər bunu bacarmır;
- planetimizdə ən çox kürən uşaqlar Şotlandiyada dünyaya göz açır;
- oğlan uşaqları əsasən gündüz, qızlar isə gecə saatlarında dünyaya gəlirlər;
- biryumurtalı əkizlərin barmaq izləri tam fərqlidir;
- bütün uşaqlar dünyaya gələrkən daltonik olurlar;
- qeyri-adi ad verilən oğlan uşaqlarının gələcəkdə psixoloji problemlərlə üzləşmə ehtimalı 50 faizdir; qızlarda isə belə bir asılılıq müşahidə edilməyib.





## "Üz korluğu" müalicə ediləcək

Alimlər insan üzlərini tanımamaqla xarakterizə edilən "üz korluğu" xəstəliyi üçün yeni müalicə metodu tapıblar. Tibb dilində "prosopagnosia" deyə tanınan bu xəstəliyin daşıyıcıları başqa insanların üz, ağız, göz kimi orqanlarını görsələr də onlar arasında əlaqə qura bilmirlər. Bir çox hallarda belə xəstələr insanların üzünü xatırlamadıqlarını deyirlər.

BBC-nin xəbərinə görə, xəstəliyin ən ağır halında xəstələr ailə üzvlərini belə tanıya bilmirlər. İngiltərədə hər 100 nəfərdən ikisi bu xəstəliyin daşıyıcısıdır. Xəstəliyin müalicəsi üçün mütəxəssislər yeni yol tapdıqlarını deyirlər. Belə ki, xəstələr kompüter vasitəsilə testdən keçirilirlər. Onlara tanınmışların üzləri göstərilir və onları necə xatırladıqları haqda məlumat alınır. Bir neçə saatlıq müayinədən sonra xəstəlik müəyyənləşir və müalicə üsulu tətbiq edilir.




**QOÇ** - Saat 16-ya qədər bütün vacib işlərinizi yekunlaşdırmağa çalışın. Həmin ərəfədə şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Sonrakı müddəti isə daha çox istirahətə həsr edin.

**BUĞA** - Şəxsi büdcənizdə vəziyyət ürəkaçan olmasa da, nəzərdə tutduğunuz planların icrasında çətinlik çəkməyəcəksiniz. Günün ikinci yarısında mənasız amillərə vaxt itirməyin.

**ƏKİZLƏR** - İntuisiyanıza inanın. Həmişə məsləhətə ehtiyacınız olsa belə, bu gün daxili səsinizin hökmü ilə hərəkət etməlisiniz. Bununla yanaşı, tərəf-müqabillərinizin rəyini də nəzərə alın.

**XƏRÇƏNG** - Sağlamlığınıza diqqət yetirin ki, qarşıda duran öhdəliklərinizə daha asan yetişəsiniz. Ulduzların düzümü saat 14-16 aralığında və saat 19-dan sonra şanslı məqamlar yaşayacağınızdan xəbər verir.

**ŞİR** - Hansısa işi planınıza uyğun həyata keçirmək imkanınız olmayacaq. Hər şey gözlənilmədən baş verəcək. Hətta qəfildən pul kisəniz ağırlaşa da bilər. Axşam saatlarında istirahət edin.

**QIZ** - Ulduzlar xəbər verir ki, bu təqvim şəxsi işlərinizdə yeni mərhələnin baş qaldırmasına səbəb ola bilər. Bunun üçün müsahiblərinizə diqqətlə qulaq asmalı, düz seçim etməlisiniz.

**TƏRƏZİ** - Ümumən düşərli gün hesab etmək olar. Həm fəaliyyət zəminində, həm də insanlarla münasibətdə çox şeydən razı qalacaqsınız. Bu gün emosionallıqdan uzaq olmağa çalışın.

**ƏQRƏB** - Real hadisələrlə daxili yanaşmanızda ciddi ziddiyyət var. Bu da təbii olaraq ətrafa münasibətinizdə və əsəblərinizdə xoşagəlməzlik yaradır. Bu gün məhz deyilən problemi həll etməlisiniz.

**OXATAN** - Qarışıq gün hesab etmək olar. Bəzi sahələrdə vəziyyət nəzarətinizdən çıxa bilər. Bu səbəbdən hər addımda diqqətli olmalısınız. Bu gün qidanıza da fikir verməlisiniz.

**OĞLAQ** - Fiziki və təcrübi baxımdan passiv gün olsa da, düşüncə və planlarınızda irəliyə doğru addım ata bilərsiniz. Amma ideyalarınızı kəskin qoymaqdansa həmsöhbətlərinizə güzəştə getməlisiniz.

**SUTÖKƏN** - Boş vaxt olduğu təqdirdə qohum-əqrabaya baş çəkmək sizə rahatlıq verə bilər. Cari qayğılarınızı bugünlük də olsa, unutmağa çalışın. Bu gün pul xərcləməyə dəyər. Axşam soyuqdan qorunun.

**BALIQLAR** - Hər mənada düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizdən xəbər verəcək. Əlbəttə ki, bunun üçün özünüz də canfəşanlıq göstərməlisiniz. Sövdələşmələrdə aktiv olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Facebook başına bəla oldu

Avstraliyada yaşayan gənc at yarışından 800 dollar qazanıb. Sevincini dostları ilə paylaşmaq üçün o, yarış kuponu ilə çəkdirdiyi şəkili facebook sosial şəbəkəsində yerləşdirib. Lakin dostları arasında bir nəfərin niyyəti heç də yaxşı olmayıb. Kupon üzərindəki bank kodu şəkildə açıq göründüyü üçün kimliyi bilməyən dost bankomatdan qadının qazandığı pulu çəkib.



Başına gələnlərə görə internetdə gülüş hədəfinə çevrilən qadın iştirak etdiyi radio proqramında pulu götürən şəxsin kimliyinin bəlli olduğunu və qısa müddətdə pulunu geri alacağını deyib. Gənc qadın daha sonra facebook şəbəkəsindəki profilində pulunu götürən şəxsə söyərək onu tənqid edib.

**Səhifəni hazırladı: ŞAHNAZ**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.